## REGİONLARDA MƏKTƏB BİNALARININ TİKİNTİSİ VƏ TƏMİRİ DAVAM ETDİRİLİR

*Hazırda ölkəmizin müxtəlif bölgələrində 34 yeni məktəb binası tikilir, 22 məktəb binasında isə əsaslı təmir-bərpa işləri aparılır*

Məlum olduğu kimi, Azərbaycanda təhsilin inkişafı ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Ölkəmizdə insan kapitalının inkişafını təmin etmək məqsədilə bu sahəyə xüsusi diqqət yetirilir. Daha dəqiq desək bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda...



Bax səh. 8

## HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞKİLATÇILIĞI İLƏ NƏSİMİ – ŞEİR, İNCƏSƏNƏT VƏ MƏNƏVİYYAT FESTİVALI KEÇİRİLƏCƏK

Sentyabrın 27-30-da Azərbaycanda ilk dəfə olaraq Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı keçiriləcək. AZƏRTAC xəbər verir ki, Şərqin dahi şair və mütəfəkkirlərindən biri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığına həsr olunan, şeir və incəsənətin yaşadılması məqsədi daşıyan Festival Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşır. Altı əsr əvvəl yaşamış böyük şair...




Bax səh. 8



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 05 sentyabr 2018-ci il, çərşənbə / № 166 (5293). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# Azərbaycan və Rusiya prezidentlərinin müntəzəm xarakter daşıyan görüşləri iki ölkə arasında münasibətlərin daha da dərinləşməsində mühüm rol oynayır



***Prezident İlham Əliyev:** Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz son üç ayda üç dəfə görüşmüşük*



## Prezidentin iş günü

Prezident İlham Əliyev Etibar Sinabəddin oğlu Pirverdiyevin "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Balababa Hüseynağa oğlu Rzayevin "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Balababa Hüseynağa oğlu Rzayevin "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti təyin edilməsi haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Şəmkir rayonunun Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

◆ ❖ ◆

Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

## Dövlət Komissiyası "Azərenerji" ASC-nin fəaliyyətində ciddi nöqsanlar aşkara çıxarıb

2018-ci il iyulun 3-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin yarımstansiyalarından birində cərəyan transformatorunda qəza baş vermişdir. Qəza nəticəsində Azərbaycanın enerji sistemində ciddi problemlər yaranmış, Bakı və Gəncə şəhərləri də daxil olmaqla, respublikanın 39 şəhər və rayonunun elektrik enerjisi ilə təminatında fasilə yaranmışdır. AZƏRTAC-ın Azərbaycan Respublikası Prezidenti Administrasiyasından aldığı məlumatda deyilir ki, baş vermiş qəzanın səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə elə həmin gün Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Baş nazirinin birinci müavininin rəhbərliyi ilə Dövlət Komissiyası yaradılmışdır...

Bax səh. 3



## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN QAZILAR ŞURASI MƏHƏRRƏMLİK AYI İLƏ BAĞLI FƏTVA VERİB

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası sentyabrın 4-də Məhərrəmlik ayı ilə bağlı fətva verib. AZƏRTAC xəbər verir ki, bununla bağlı keçirilən tədbirdə əvvəlcə "Qurani-Kərim"dən ayələr...

Bax səh. 3

## SİYASİ DİLETANTIN REALLIQDAN UZAQ SAYIQLAMALARI...

Yaxud İlqar Məmmədov anti-Azərbaycan dairələrin direktivləri əsasında fəaliyyət göstərir

Sirr deyil ki, ölkəmizin dinamik inkişafı, milli maraqlara əsaslanan müstəqil siyasət həyata keçirməsi və milli mənafelərlə bağlı prinsipial mövqedən çıxış etməsi anti-Azərbaycan dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Həmin dairələr "beşinci kolon" nümayəndələrinin xidmətlərindən istifadə etməklə ölkəmizə qarşı təzyiq mexanizmi formalaşdırmağa, dövlətimizin müsbət beynəlxalq imicinə kölgə salmağa çalışırlar. "Sapı özümüzdən olan balta"lar, yəni "beşinci kolon" nümayəndələri - ermənipərəst və antimilli şəxslər isə anti-Azərbaycan dairələrin sifarişlərini canla-başla yerinə yetirir, ölkəmizin milli maraqlarına zidd mövqe sərgiləyirlər. Həmin ünsürlərin xarici maraq qruplarından aldıqları qrantların "haqq"ını vermək və maliyyə axınının davamlılığını təmin etmək üçün istinad etdiyi vasitələrdən biri məhz anti-azərbaycançı çağırışlar səsləndirmək, ümummilli məsələlərdə dövlətimizin və xalqımızın mənafeyinə...

Bax səh. 7



## SABUNÇU VƏ BİNƏQƏDİ RAYONLARINDA "DİNİ MƏRASİMLƏR: ƏNƏNƏVİLİK VƏ MÜASİRLİK" MÖVZUSUNDA SEMİNAR-MÜŞAVİRƏ KEÇİRİLİB

Bakı şəhərinin Sabunçu və Binəqədi rayonlarında həmin rayonların İcra Hakimiyyətlərinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə...

Bax səh. 4

## OANA İcraiyyə Komitəsinin üzvləri Tehranın görməli yerləri ilə tanış olublar



Sentyabrın 4-də Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin üzvləri İran İslam Respublikasının paytaxtı Tehran şəhərinin görməli yerləri ilə tanış olublar. AZƏRTAC-ın xüsusi müxbiri...

Bax səh. 3

## Gəncədə sakinlərin problemləri dinlənilib

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Heydər Əliyev prospekti ilə İsrafil Məmmədov küçəsinin kəsişməsində yerləşən doqquzmərtəbəli binanın və ətraf ərazilərin sakinləri...



Bax səh. 6

## *Rusiyalı ekspert:* İqtisadiyyat Azərbaycan-Rusiya münasibətlərində mühüm aspekt olacaq

Xəzər dənizinin statusu haqqında Konvensiyanın imzalanması zamanı prezidentlərimiz arasında Aktaudakı görüşdən cəmi üç həftə sonra həyata...



Bax səh. 3

## Azərbaycan ilə Rusiya arasındakı münasibətlər strateji xarakter daşıyır

Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Soçidə keçirilən görüşündə bir çox...



Bax səh. 4

## Azərbaycan və Rusiya liderlərinin səmimi münasibətləri ölkələrimiz arasında əməkdaşlığın inkişafına kömək edir

Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri və Prezident Vladimir Putinlə görüşü iqtisadi əməkdaşlığın...



Bax səh. 4

# Azərbaycan və Rusiya prezidentlərinin müntəzəm xarakter daşıyan görüşləri iki ölkə arasında münasibətlərin daha da dərinləşməsində mühüm rol oynayır

## *Prezident İlham Əliyev: Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz son üç ayda üç dəfə görüşmüşük*

*Xəbər verildiyi kimi, bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasında rəsmi səfərdə olub. Kifayət qədər məhsuldar keçən səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təkbətək və geniş tərkibdə görüşləri keçirilib, dövlət başçılarının iştirakı ilə çoxsaylı sənədlər imzalanıb. İmzalanan mühüm sənədlərdən biri də "Azərbaycan və Rusiya arasında iqtisadi əməkdaşlığın prioritet istiqamətləri haqqında Birgə Bəyanat"dır. Birgə Bəyanatı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin imzalayıblar. Sənədlərin imzalanması mərasimi başa çatandan sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər. Həm səmimilik şəraitində keçən görüşlərdə, həm də mətbuata bəyanatlarda dövlət başçıları iki qonşu və dost ölkə arasındakı münasibətlərin hazırkı səviyyəsindən və inkişafından məmnunluq ifadə ediblər.*



Azərbaycanla Rusiya yalnız Xəzər sahilində eyni coğrafiyanı bölüşən ölkələr deyillər. Hər şeydən əvvəl onu vuğulamaq yerinə düşər ki, hər iki ölkəni ümumi tarixi keçmiş birləşdirir - həm Rusiya, həm də Azərbaycan bir neçə onillik ərzində eyni ittifaqın tərkibində mövcud olublar. Bu gün iki qonşu ölkə müstəqil dövlətlər kimi uğurla inkişaf edərək aralarındakı strateji tərəfdaşlıq münasibətlərini daha da möhkəmləndirirlər. İki ölkəni möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Dövlətlərimizin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır. Prezident İlham Əliyev sənədlərin imzalanması mərasimindən sonra mətbuata verdiyi bəyanatında Azərbaycanla Rusiya arasındakı yüksək münasibətlərə diqqət çəkərək deyib: **"Rusiya bizim qonşumuz, tarixi tərəfdaşımız və dostumuzdur".** hövzəsi sülh, iqtisadi çiçəklənmə, qarşılıqlı inam regionuna çevrilsin, xalqlar əmin-amanlıq şəraitində yaşasınlar.

Deyilənlər kontekstində Azərbaycanla Rusiya arasında əməkdaşlıq əlaqələri xüsusi əhəmiyyət daşıyır. İki ölkə arasındakı yüksək münasibətlər regional əməkdaşlığın dərinləşməsinə müsbət təsir göstərir. Hər iki dövlət Xəzəryanı ölkələr arasında əməkdaşlığın hüquqi bazasının yaradılmasında fəal iştirak ediblər. Xəbər verildiyi kimi, cari il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya və bu Konvensiyadan irəli gələn digər mühüm sənədlər imzalanıb. Azərbaycan və Rusiya Xəzər dənizinin hüquqi statusunun müəyyənləşməsi baxımından tarixi əhəmiyyət daşıyan bu sənədin hazırlanmasının bütün mərhələlərində konstruktiv mövqe ortaya qoyublar.

*"Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Yəni bu, özlüyündə ölkələrimiz arasında əməkdaşlığın miqyasına və əhəmiyyətinə dəlalət edir"*

İki qonşu ölkə arasında əlaqələrin yüksək səviyyəyə qalxmasında Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında yaranan dostluq münasibətləri və dövlət başçılarının davamlı xarakter alan görüşləri mühüm rol oynayır. **"Bizim görüşlərimiz müntəzəm xarakter daşıyır. Biz son üç ayda üç dəfə görüşmüşük",** - deyə Prezident İlham Əliyev vurğulayıb.

Xatırladaq ki, prezidentlərin qarşılıqlı səfərləri də ənənə halını alıb. Dövlət başçıları həmçinin beynəlxalq səviyyəli tədbirlərdə tez-tez bir araya gəlirlər. Prezidentlərin çoxtərəfli platformalarda da görüşləri baş tutur. Son illərdə Prezident İlham Əliyevlə Prezident Vladimir Putin Azərbaycan, İran və Rusiya arasında yaranan üçtərəfli platforma çərçivəsində bir neçə dəfə görüşüblər. Bundan əvvəl iki ölkə prezidentləri cari il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında bir araya gəliblər. Prezidentlərin belə görüşləri hər dəfə Azərbaycanla Rusiya arasında münasibətlərin daha da dərinləşməsinə özünün yeni dəyərli töhfəsini verir. Dövlət başçıları müzakirə edilən məsələlərin, qəbul edilən qərarların icra vəziyyətini daim izləyirlər və özlərinin dəyərli tövsiyələrini verirlər. Prezident İlham Əliyev vurğulayıb ki, ölkələrimizin dövlət başçıları arasında müntəzəm əlaqələr bizim çox möhkəm bazaya əsaslanan münasibətlərimizə dinamizm verir.

### İKİ ÖLKƏ ARASINDAKI MÜNASİBƏTLƏR BÜTÜN SAHƏLƏRİ ƏHATƏ EDİR

Azərbaycanın çoxvektorlu xarici siyasət kursunun əsas paradiqmalarından biri Xəzər hövzəsi regionunda əməkdaşlığı daha da dərinləşdirməkdən ibarətdir. Respublikamız Prezident İlham Əliyevin siyasi iradəsi əsasında daim o mövqedən çıxış edir ki, Xəzər

Ölkələrimiz arasında həmçinin humanitar sahədə sıx əməkdaşlıq qurulub. Azərbaycanda təhsil prosesinin tamamilə rus dilində olduğu 340-dan çox məktəb var. Paytaxtımızda Azərbaycan Dövlət Rus Dram Teatrı, Slavyan Universiteti, Rusiyanın aparıcı ali məktəblərinin filialları uğurla fəaliyyət göstərir.

Azərbaycanın və Rusiyanın dövlət başçılarının müntəzəm xarakter alan görüşlərində ənənəvi olaraq regional təhlükəsizlik məsələləri, ilk növbədə isə uzun illərdən bəri davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması geniş müzakirə edilir. Məlumdur ki, Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazilərinin 20 faizi erməni işğalı altındadır. Bu münaqişə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Münaqişənin tezliklə həlli qaçqın vəziyyətinə düşən Azərbaycan vətəndaşlarının öz tarixi torpaqlarına qayıtmalarına imkan verər, həmçinin regiona sülh, sabitlik və əməkdaşlıq gətirər. Prezident İlham Əliyev vurğulayıb ki, Rusiya münaqişənin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi, tənzimləmə işində mühüm rol oynayır. Ümumiyyətlə, Rusiya ilə Azərbaycan arasında münasibətlər həyatın bütün sahələrini əhatə edir. Bunu nəzərə çatdıran Prezident İlham Əliyev **"Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir. Bu münasibətlər həyatımızın bütün sahələrini əhatə edir və bu gün mənim səfərim zamanı biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini, beynəlxalq problemləri ətraflı şəkildə müzakirə etdik",** - deyə bildirib.

Öz növbəsində Rusiya Prezidenti Vladimir Putin də iki ölkə arasında münasibətlərin dinamik şəkildə inkişaf etməsindən razılığını nəzərə çatdırıb. O deyib ki, Rusiya və Azərbaycanın münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır: **"Qeyd edim ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Dövlətlərimizin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır".**

Qeyd etmək yerinə düşər ki, hazırda Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır. Onlardan minə yaxını Rusiya Federasiyasının Federal büdcəsi hesabına təhsil alır. Rusiya və

*"Rusiya ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşların münasibətləridir. Bu münasibətlər həyatımızın bütün sahələrini əhatə edir və bu gün mənim səfərim zamanı biz ikitərəfli münasibətlərimizin bir çox aspektlərini, beynəlxalq problemləri ətraflı şəkildə müzakirə etdik"*

Azərbaycan prezidentlərinin təşəbbüsü ilə yaradılan Bakı Beynəlxalq Humanitar Forumunun iclasları müntəzəm keçirilir. Forumun ilin sonunda Bakıda keçiriləcək növbəti 6-cı iclasına 500-dən çox iştirakçının qatılacağı gözlənilir.

### RUSİYA İLƏ AZƏRBAYCAN ARASINDA İQTİSADİ ƏMƏKDAŞLIĞA DAİR YOL XƏRİTƏLƏRİ ƏMTƏƏ DÖVRİYYƏSİNİ DAHA DA ARTIRMAĞA İMKAN VERƏCƏK

İki güclü region dövlətinin iqtisadi sahədə əməkdaşlığının spektri də kifayət qədər genişdir. Neft-qaz sahəsində əməkdaşlıq Azərbaycanla Rusiya arasında iqtisadi münasibətlərin mühüm həlqəsini təşkil edir. Məlumdur ki, ölkəmizin təşəbbüsləri sayəsində bir sıra transmilli şirkətlər Xəzərin Azərbaycan sektorundakı yataqlardan zəngin karbohidrogen ehtiyatlarının işlənməsinə cəlb edilib. Xəzərin Azərbaycan sektorunda reallaşdırılan layihələr sayəsində ölkəmizin iqtisadi qüdrəti artıb, maliyyə imkanları genişlənib. Hazırda Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

Xəzərin Azərbaycan sektorunda zəngin karbohidrogen ehtiyatlarının işlənməsində həmçinin Rusiya şirkətləri də aktiv şəkildə iştirak edirlər. Məlumdur ki, hər iki ölkə iri karbohidrogen istehsalçısıdır. Ancaq dövlətlərin güclü siyasi iradəsi sayəsində bu amil ölkələr arasında rəqabətə deyil, qarşılıqlı əməkdaşlığa yol açır. Yeri gəlmişkən, OPEK çərçivəsində əlaqələndirmə artıq öz müsbət nəticələrini verib. Qaz istehsalçıları təşkilatı çərçivəsində də uğurlu əməkdaşlıq həyata keçirilir. Qonşu dövlət həmçinin Azərbaycanın şaxələndirilmiş enerji marşrutlarına böyük diqqət göstərir. Hazırda Rusiyanın "Qazprom", "Transneft" və "Lukoyl" kimi şirkətləri ölkəmizdə uğurla fəaliyyət göstərir. Ümumiyyətlə, neft-qaz sektoru iki ölkə arasında əməkdaşlığın ənənəvi sahəsidir. Bu sahədə çox yaxşı potensial və perspektivlər var. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Rusiya Federasiyasına son səfəri çərçivəsində neft-qaz sahəsində əməkdaşlığa dair mühüm sənədlər, o cümlədən "Rosneft" Neft Şirkəti Publik Səhmdar Cəmiyyəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında "Qoşadaş" blokunun və Xəzər dənizi təkinin Azərbaycan hissəsində yerləşən Abşeron yarımadasının dayazsulu şimal hissəsinin neft və qaz potensialının birgə öyrənilməsi haqqında Saziş", "Rosneft" Neft Şirkəti Publik Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında Kontrakt" imzalanıb.

Azərbaycanla Rusiya arasında uğurlu iqtisadi əməkdaşlığın digər bir mühüm istiqaməti elektroenergetika sektorudur. İki ölkənin enerji şəbəkələrinin birləşdirilməsi və bunun praktiki nəticələri müsbət qiymətləndirilir. Qeyd edək ki, Azərbaycanın və Rusiyanın enerji sistemləri paralel iş rejimində fəaliyyət göstərir. İki ölkənin enerji sistemlərini "Xaçmaz-Dərbənd" və "Yalama" elektrik verilişi xətləri birləşdirir. Şübhə yoxdur ki, səfər çərçivəsində imzalanan "Azərbaycan Respublikasının Hökuməti ilə Rusiya Federasiyasının Hökuməti arasında elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında Saziş" iki ölkənin elektroenergetika sahəsində əməkdaşlığının dərinləşməsinə yeni impuls verəcək.

Hazırda Azərbaycanın, Rusiyanın iştirakı ilə Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində intensiv işlər həyata keçirilir. Azərbaycan Şimal-Cənub dəhlizinin yaradılmasında üzərinə düşən bütün öhdəlikləri qısa müddətdə yüksək səviyyədə yerinə yetirib. Artıq Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətdədir. Layihə çərçivəsində Azərbaycan 8,4 km dəmir yolu xəttinin çəkilməsini, hər biri 1050 metr olan 4 stansiya yolunun tikintisini həyata keçirib. Gələn il Rusiya və Azərbaycan Samur sərhəd çayı üzərindən körpünün tikintisini başa çatdırmaq niyyətindədir. Bəhs olunan dəhliz Cənubi Asiya və Yaxın Şərqdən İran vasitəsilə Avropaya yük daşımalarını xeyli sürətləndirməyə imkan verəcək. Bu arteriyanın ümumi uzunluğu 7 min kilometrdən artıqdır. Buraya dəmir yolu, bərə və avtomobil nəqliyyatı yolları daxildir. Qeyd edək ki, 2018-ci ilin əvvəlindən bəri Şimal-Cənub nəqliyyat dəhlizi ilə keçən illə müqayisədə təxminən 100 dəfə çox yük daşınıb. Perspektivdə isə bu həcmin daha da artacağı proqnozlaşdırılır.

Ümumiyyətlə, Azərbaycanla Rusiya arasında ikitərəfli iqtisadi əlaqələr çox uğurla inkişaf edir. 2017-ci ilin yekununa görə iki ölkə arasında əmtəə dövriyyəsi təxminən 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Sahibkarlıq birlikləri arasında, o cümlədən kiçik və orta biznes xətti ilə əlaqələr genişlənir. Əlamətdar haldır ki, hazırda Rusiya Azərbaycanda yetişdirilən bir sıra kənd təsərrüfatı məhsullarının böyük həcmlərdə ixrac edildiyi ölkədir. Burada keyfiyyətli, yüksək rəqabət qabiliyyətinə malik Azərbaycan məhsullarına, o cümlədən meyvə-tərəvəzə böyük tələbat var. **"Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Yəni, bu, özlüyündə ölkələrimiz arasında əməkdaşlığın miqyasına və əhəmiyyətinə dəlalət edir",** - deyə Prezident İlham Əliyev bildirib.

İki qonşu dövlət arasında iqtisadi sahədə əməkdaşlığın perspektivləri də kifayət qədər genişdir. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin bəhs olunan səfəri çərçivəsində imzalanan sənədlərin böyük qismi məhz iqtisadi sektora aiddir. İqtisadi sektora aid imzalanan sənədlər sırasında "Kiçik və orta sahibkarlığın inkişafı üzrə Federal Korporasiya" Səhmdar Cəmiyyəti ilə "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi" Publik Hüquqi Şəxs arasında qarşılıqlı anlaşma haqqında Memorandum çərçivəsində tədbirlərin reallaşdırılması üzrə Yol Xəritəsi", "Azərbaycan Respublikası

*"Biz iqtisadi məsələlər üzərində ətraflı dayandıq və əmtəə dövriyyəsinin artdığını, gələcək üçün böyük perspektivləri məmnuniyyətlə qeyd etdik"*

Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında rəqəmsal nəqliyyat sistemləri sahəsində əməkdaşlıq haqqında Memorandum", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi arasında sənaye sahəsində əməkdaşlığın möhkəmləndirilməsi haqqında Saziş", "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Rusiya Federasiyasının İqtisadi İnkişaf Nazirliyi arasında daşınmaz əmlak hüquqlarının qeydiyyatı və kadastr fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Saziş", "Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planı" və "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 2024-cü ilədək əməkdaşlıq Proqramı"nı nümunə gətirə bilərik. Mütəxəssislərin qənaətinə görə, imzalanan sənədlər Rusiya-Azərbaycan əlaqələrinin gələcək inkişafına əlavə təkan verəcək. Əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planının önəmini xüsusi qeyd etmək lazımdır. Bura iqtisadi sahədə bir sıra istiqamətlərdə əlaqələrin daha da intensivləşdirilməsinə hədəflənən yol xəritələri daxildir. Prezident İlham Əliyev əminliyini ifadə edərək bildirib ki, iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə yol xəritələri ölkələrimiz arasında onsuz da dinamizmi ilə fərqlənən əmtəə dövriyyəsini daha da artırmağa imkan verəcək: **"Biz iqtisadi məsələlər üzərində ətraflı dayandıq və əmtəə dövriyyəsinin artdığını, gələcək üçün böyük perspektivləri məmnuniyyətlə qeyd etdik. Bu gün müzakirə edilmiş və razılaşdırılmış məsələlər, dəqiq desək, iqtisadi əməkdaşlığın müxtəlif istiqamətləri üzrə yol xəritələri ölkələrimiz arasında onsuz da dinamizmi ilə fərqlənən əmtəə dövriyyəsini daha da artırmağa imkan verəcək. Keçən il əmtəə dövriyyəsinin güclü artımına baxmayaraq, artım bu il də davam edir".**

İki ölkənin ayrı-ayrı regionları arasında formalaşan əməkdaşlıq münasibətləri barədə də ayrıca söhbət açmaq mümkündür. Qeyd edək ki, Rusiya Federasiyasının 70-dən artıq subyekti Azərbaycanla iqtisadi əlaqələr saxlayır. Həm də onlardan 17-si ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq barədə Çərçivə sazişləri bağlayıb. 2018-ci ilin oktyabrında növbəti regionlararası forumun keçirilməsi nəzərdə tutulub.

### SƏRMAYƏ QOYULUŞUNUN ARTMASI İKİ ÖLKƏ ARASINDA QARŞILIQLI İNAMIN YÜKSƏK SƏVİYYƏDƏ OLDUĞUNU TƏSDİQLƏYİR

Əvvəlki illərdə yaradılan güclü iqtisadi potensial, müasir infrastruktur təminatı, nəqliyyat dəhlizləri, Avropaya və Asiyaya çıxış imkanlarının eyni bir məkanda cəmləşməsi və əlbəttə ki, möhkəm daxili sabitlik, dövlətin güclü siyasi iradəsi yerli və xarici iş adamlarının çəkinmədən Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə sərmayələr yönəltmələrinə güclü stimul verir. Son 15 ildə ölkəmizə 230 milyard dollardan artıq investisiyalar yönəldilib. Respublikamıza yönəldilən investisiyaların daha böyük hissəsini isə xarici sərmayələr təşkil edir.

Rusiyaya məxsus şirkətlər də Azərbaycandakı əlverişli investisiya mühitindən maksimum dərəcədə bəhrələnməyə çalışırlar. Bütövlükdə Azərbaycandan Rusiyaya və əksinə, qonşu ölkədən respublikamıza sərmayə qoyuluşunun artması iki ölkə arasında qarşılıqlı inamın yüksək səviyyədə olduğunu təsdiqləyir. Prezident Vladimir Putinin mətbuata bəyanatında vurğuladığı kimi, Rusiyanın Azərbaycana birbaşa kapital qoyuluşu 1,5 milyard dollar təşkil edib. Azərbaycan bazarında təxminən 700 birgə müəssisə var ki, onlardan da üçdəbiri 100 faizlik Rusiya kapitalı ilə fəaliyyət göstərir. Rusiya-Azərbaycan İşgüzar Şurası təkcə ötən il ümumi dəyəri 450 milyon dollar olan 42 birgə layihəyə dəstək verib. Eyni zamanda, sənaye sahəsində kooperasiya dərinləşir. Məsələn, "KamAZ" Gəncə avtomobil zavodunda lisenziyalı yük maşınlarının buraxılmasını və onlara xidmət göstərilməsini qaydaya salıb. Rusiyanın "R-Farm" şirkəti 2019-cu ildə Azərbaycanda açılacaq dərman preparatlarının istehsalı müəssisəsinin tikintisinə 74 milyon dollar sərmayə yatırıb. "Qazprombank" Sumqayıt Kimya-Sənaye Parkının inkişafında iştirak edir. Sərmayənin həcmi təqribən 750 milyon dollar təşkil edir. 2017-ci ildə Bakıda Rusiya İxrac Mərkəzinin nümayəndəliyinin açılması Rusiya ilə Azərbaycan arasında ticarət əlaqələrinin genişlənməsində əhəmiyyətli addımdır.

Azərbaycanın ilk ticarət nümayəndəliyi məhz Rusiya Federasiyasında yaradılıb. "Made in Azerbaijan" brendinin təşviqi, ixracın genişləndirilməsi məqsədi ilə Rusiyaya ixrac missiyaları təşkil edilib, Azərbaycan şirkətləri bu ölkədə keçirilmiş sərgilərdə vahid ölkə stendi ilə təmsil olunub. Hazırda Azərbaycan Rusiyada müxtəlif investisiya layihələri reallaşdırır. İndiyədək Azərbaycan tərəfindən Rusiya iqtisadiyyatına 1 milyard ABŞ dollarından çox sərmayələr yönəldilib. Prezident İlham Əliyev iki ölkə arasında qarşılıqlı investisiya qoyuluşunun artmasından məmnunluğunu ifadə edərək deyib: **"Çoxlu investisiya layihələri həyata keçirilir və onların yaxşı perspektivi vardır. Bütövlükdə ticari-iqtisadi sahədə əmtəə dövriyyəsinin artmasını, inteqrasiya əlaqələrinin möhkəmlənməsini və şirkətlərimiz arasında əməkdaşlıq üçün daha yaxşı şərait yaradılmasını gözləyirik".**

Hər iki ölkədə qarşılıqlı investisiya fəaliyyətinin genişlənməsində Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının rolunu xüsusi vurğulamaq lazımdır. Cari ilin sonunadək Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının 17-ci iclasının keçirilməsi nəzərdə tutulub.

**Mübariz ABDULLAYEV**

# Dövlət Komissiyası "Azərenerji" ASC-nin fəaliyyətində ciddi nöqsanlar aşkara çıxarıb

*"Azərenerji"nin prezidenti Etibar Pirverdiyev tutduğu vəzifədən azad edilib*



2018-ci il iyulun 3-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin yarımstansiyalarından birində cərəyan transformatorunda qəza baş vermişdir. Qəza nəticəsində Azərbaycanın enerji sistemində ciddi problemlər yaşanmış, Bakı və Gəncə şəhərləri də daxil olmaqla, respublikanın 39 şəhər və rayonunun elektrik enerjisi ilə təminatında fasilə yaranmışdır.

AZƏRTAC-ın Azərbaycan Respublikası Prezidenti Administrasiyasından aldığı məlumatda deyilir ki, baş vermiş qəzanın səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə elə həmin gün Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Baş nazirinin birinci müavininin rəhbərliyi ilə Dövlət Komissiyası yaradılmışdır. Azərbaycan Prezidenti tərəfindən Dövlət Komissiyasına təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunması məqsədilə hadisənin başvermə səbəblərini araşdıraraq obyektiv rəy hazırlanması və gələcəkdə belə halların təkrarlanmaması üçün təkliflərin verilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər görülməsinə dair çox ciddi tapşırıqlar verilmişdir.

Ötən müddət ərzində Dövlət Komissiyası tərəfindən yerli və xarici ekspertlər, aidiyyəti dövlət orqanlarının və qurumlarının nümayəndələri də cəlb edilməklə, qəzanın başvermə səbəbləri ciddi araşdırılmış, mövcud çatışmazlıqlar və problemlər, habelə qəzanı doğuran hallar da əks olunmaqla, hərtərəfli və geniş rəy hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.

Hazırlanmış rəydə baş vermiş qəzanın əsas səbəblərindən biri kimi "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin qəzaya lazımi səviyyədə hazır olmaması, fəaliyyətində mövcud olan texniki və bir sıra digər çatışmazlıqlar üzündən qəzaya adekvat reaksiya verə bilməməsi, habelə nəticədə ölkənin enerji sistemində qəzaya gətirib çıxaran bir sıra digər nöqsanlara yol verdiyi qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Dövlət Komissiyasının yekun rəyi ilə tanış olmuş və işdə yol verdiyi nöqsanlara görə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyevi tutduğu vəzifədən azad etmişdir.

# OANA İcraiyyə Komitəsinin üzvləri Tehranın görməli yerləri ilə tanış olublar



Sentyabrın 4-də Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) İcraiyyə Komitəsinin üzvləri İran İslam Respublikasının paytaxtı Tehran şəhərinin görməli yerləri ilə tanış olublar.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, şəhərin Ərq meydanının yaxınlığında Tehran sədləri arasında yerləşən və Qacarlar sülaləsi dövrünə aid Gülüstan sarayı ilə tanışlıq qonaqlarda böyük maraq doğurub.

Məlumat verilib ki, XVI əsrdə Səfəvi şahı I Təhmasib tərəfindən inşa olunan saraydan sonralar Qacarlar sülaləsi iqamətgah kimi istifadə edib. Pəhləvilər sülaləsi dövründə mühüm mərasimlərin keçirildiyi saray hazırda muzey kimi fəaliyyət göstərir.



Həmin gün AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın prezidenti Aslan Aslanov ilə İranın Mehr xəbər agentliyinin baş direktoru Əli Əsğəri arasında görüş olub.

Görüşdə agentliklər arasında əməkdaşlıq əlaqələrinin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Baş direktor Əli Əsğəri bildirib ki, agentlik öz internet saytında Azərbaycan dili bölməsi yaratmaq niyyətindədir. Əli Əsğərinin təşəbbüsünü yüksək qiymətləndirən Aslan Aslanov bu işdə Mehr xəbər agentliyinə hərtərəfli dəstək göstəriləcəyini vurğulayıb.

# Rusiyalı ekspert: İqtisadiyyat Azərbaycan-Rusiya münasibətlərində mühüm aspekt olacaq



Xəzər dənizinin statusu haqqında Konvensiyanın imzalanması zamanı prezidentlərimiz arasında Aktaudakı görüşdən cəmi üç həftə sonra həyata keçirilən bu səfər kifayət qədər maraqlıdır. Soçi səfərinin gündəliyi də beştərəfli formatda keçirilən görüşlərdən daha genişdir.

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 1-də Soçiyə səfərinin və Rusiya Prezidenti Vladimir Putinlə aparılan danışıqların yekunlarını şərh edən tanınmış rusiyalı ekspert, Mərkəzi Asiya və Qafqaz Araşdırmaları Mərkəzinin analitik qrupunun rəhbəri Stanislav Pritçin AZƏRTAC-a müsahibəsində səsləndirib.

S.Pritçin deyib: **"Əlbəttə, danışıqlar ilk növbədə iqtisadi sahəni əhatə edirdi. Əlamətdar haldır ki, iqtisadi əməkdaşlığa dair sənədlər üçün konkret vaxt - 2024-cü il müəyyən edilib. Bu da o deməkdir ki, tərəflər birgə layihələr, maneələrin aradan qaldırılması və sərmayə proqramlarının həyata keçirilməsi yolu ilə iqtisadi əməkdaşlığın necə canlandırılacağı barədə dəqiq təsəvvürə malikdirlər. "QAZ" markalı avtomobillərin yığılması üzrə istehsalın yaradılması, həmçinin Xəzər dənizinin Azərbaycan sektorundakı yataqlardan birinin birgə işlənməsi irəliyə doğru daha bir addımdır. Yəni, iqtisadiyyat bizim əməkdaşlığın çox müsbət aspektidir və bu kontekstdə gündəlikdə duran məsələlərin dərinliyi və genişliyi postsovet məkanında Azərbaycanı Rusiyanın tərəfdaşları arasında aparıcı mövqelərdən birinə yüksəldir. Həm də nəzərə alaq ki, Azərbaycan Avrasiya İqtisadi İttifaqının üzvü deyil".**

Rusiyalı ekspertin sözlərinə görə, qarşılıqlı ticarət, "Şimal-Cənub" nəqliyyat dəhlizi və digər birgə layihələr üzrə nəzərdə tutulan parametrlər ən yaxın zamanda Rusiyanın Azərbaycandakı yeni səfirinin də iştirakı ilə həyata keçiriləcək. **"İqtisadiyyat ikitərəfli münasibətlərin çox mühüm aspekti, dövlətlərimiz arasında mehriban qonşuluq və strateji əməkdaşlığın rəhni olacaq"**, - deyə S.Pritçin fikirlərini yekunlaşdırıb.

# Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Məhərrəmlik ayı ilə bağlı fətva verib



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası sentyabrın 4-də Məhərrəmlik ayı ilə bağlı fətva verib.

AZƏRTAC xəbər verir ki, bununla bağlı keçirilən tədbirdə əvvəlcə "Qurani-Kərim"dən ayələr səsləndirilib.

Tədbirdə çıxış edən QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə bildirib ki, müqəddəs aylardan olan Məhərrəm ayı Həzrət Peyğəmbərin (s) buyurduğu kimi, müharibə və münaqişələrin qadağan edildiyi aylardandır. Lakin təəssüflər olsun ki, bu ayın onuncu, yəni Aşura günü İslam tarixinə Həzrət Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseyn əleyhissəlamın və Əhli-Beyt (ə) tərəfdarlarının haqq uğrunda şəhadətə yetişdiyi bir gün kimi daxil olub. Müsəlman ümmətinin tarixində kədərli, eyni zamanda, insanlara şərəf və qürur bəxş edən Kərbəla faciəsinin nəsillərin yaddaşında əbədi yaşaması, İmam Hüseynin (ə) həyat və şəhadətinin yad edilməsi bu gün də dindarlar üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, ölkəmizdə İmam Hüseyn (ə) əzadarlığı, Peyğəmbər nəvəsinin iman, mənəviyyatın saflığı uğrunda mübarizəsinin yad edilməsi bədbinlik əhval-ruhiyyəsinin təlqini deyil, Vətən və iman sevgisinin təcəssümü, işğal olunmuş Qarabağ torpaqlarının azad edilməsi uğrunda mübarizədə fədakarlıq və dəyanət örnəyi olmalıdır.

Ölkəmizdəki dövlət din-münasibətlərindən danışan QMİ sədri deyib ki, Azərbaycan bütün din nümayəndələrinin rahat və təhlükəsiz yaşadığı bir məkandır və bu model dünya ölkələri üçün örnəkdir. Azərbaycanda sağlam düşüncəli insanların çox olduğu üçün ölkəmizdə məzhəb ayrı-seçkiliyi yaratmaq mümkün deyil. Dünyada İslam dininə xələl gətirmək istəyən qüvvələr var. Azərbaycan hər zaman bununla mübarizə aparıb və İslam həmrəyliyinə böyük töhfə verib. Təəssüf ki, bəzi qüvvələr Azərbaycanın daxili işlərinə qarışır, məzhəb ayrı-seçkiliyi, dini ayrı-seçkilik salmaq istəyirlər. Ancaq bu məkrli planlar heç vaxt baş tutmayıb və baş tutmayacaq. Çünki bizim ölkəmiz tolerant ölkədir. Bizdə dindarlar üçün hər cür şərait yaradılıb, bütün dinlərə münasibət eynidir. Bu, Azərbaycanın dövlət rəhbərinin siyasətidir və bu siyasət öz bəhrəsini verir. Müqəddəs Məhərrəm ayında dindarlarımız torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən, o cümlədən Qarabağ, Xocalı şəhidlərinin fədakarlıq nümunəsini təlqin etməli, Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın işğaldan tezliklə azad olunması üçün dualar etməlidirlər.

Şeyxülislam Məhərrəm ayının dini qaydalara və dövlətin qanunlarına uyğun keçirilməsinin vacibliyini vurğulayıb, bu barədə axund və imamlara müvafiq tapşırıq və tövsiyələrini verib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək milli mənəvi dəyərlərimizin inkişafı istiqamətində həyata keçirilən işlərdən danışıb, Azərbaycanda dövlət-din münasibətlərinin normal məcrada inkişaf etdiyini bildirib. Qeyd edilib ki, Aşura mərasimləri, mövcud qanunvericiliyə əsasən, məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə ictimai asayiş qaydalarına riayət olunmaqla keçirilməlidir. Təziyə məclislərində dindarlar tərəfindən Kərbəla vaqeəsində İmam Hüseyn (ə) və onunla birlikdə şəhid olanlar yad edilməli, Vətənimiz uğrunda canlarını qurban vermiş qəhrəman övladlarımızın əziz xatirəsi ehtiramla anılmalıdır. Əzadarlıq məclisləri keçirilən məkanlarda nizam-intizam gözlənilməlidir.

QMİ-nin sədr müavini Salman Musayev deyib ki, Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə gerçəkləşən və xalqımız tərəfindən təqdir edilən tibbi ehtiyaclar üçün Kərbəla şəhidlərinin xatirəsinə qan verilməsi aksiyalarının təşkili ən münasib əzadarlıq nümunəsidir və bu örnək din xadimləri tərəfindən təbliğ edilməlidir. Ümidvarıq ki, dindarlarımız İmam Hüseyn (ə) təziyədarlığı zamanı bu humanist ənənəni davam etdirəcək, din xadimlərimiz moizələrində Kərbəla hadisələri ilə bağlı tarixi həqiqətləri, Kərbəla şəhidliyinin mahiyyətini dəqiqliklə çatdıracaqlar.

Sonra Məhərrəmlik ayı ilə bağlı fətva oxunub. Fətvada deyilir: "Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası bəyan edir ki, hicri 1440-cı ilin başlanğıcı - Məhərrəm ayının 1-i miladi təqvimlə 2018-ci il sentyabrın 11-nə, Aşura günü isə sentyabrın 20-nə təsadüf edəcək.

Məhərrəm tarixboyu bütün səmavi dinlər tərəfindən sülh və əmin-amanlıq ayı kimi qəbul edilib, fəqət hicri 61-ci ildən etibarən bu ayın onuncu günü olan Aşura yaddaşlara tarixi ədalətsizlik və hüzn günü kimi daxil olub. Aşura hadisəsində Əməvi xəlifəsi Yezidin göstərişi ilə Həzrət Peyğəmbərin (s) əziz nəvəsi İmam Hüseyn (ə), o cümlədən Rəsulullahın (s) səhabələri, Əhli-Beyt və tərəfdarları Kərbəla çölündə şəhid edilmiş, ailələri əsir alınıb.

İmam Hüseynin haqq-ədalət naminə şəhadəti böyük mənəviyyat və dirçəliş nümunəsidir. Ölkəmizdə İmam Hüseyn (ə) əzadarlığı bədbinlik əhval-ruhiyyəsinin təlqini deyil, Vətən və iman sevgisinin təcəssümü, işğal olunmuş Qarabağ torpaqlarının azad edilməsi uğrunda mübarizədə dəyanət örnəyi olmalıdır. Təziyə mərasimlərində şəhidlərimizi yad etmək, onların qanlarının yerdə qalmamasını, əzəli torpaqlarımızın işğaldan azad olunmasını dua etmək müqəddəs borcumuzdur. Müsəlman ümmətinin tarixində kədərli, eyni zamanda, insanlara şərəf və qürur bəxş edən Kərbəla faciəsinin, İmam Hüseynin (ə) həyat və şəhadətinin yad edilməsi bu gün də Azərbaycan dindarları tərəfindən ənənəvi olaraq yaşadılır.

Məhərrəmlik mərasimləri İmam Hüseynin (ə) şəninə uyğun və amallarına yaraşan tərzdə qeyd edilməlidir. Mövcud qanunvericiliyə əsasən, təziyə məclisləri məscidlərdə, ibadət ocaqlarında və onlara aid ərazilərdə təşkil olunmalı, ictimai asayişə mane olmamalıdır. Dini mərasim və ayinlər yalnız QMİ-nin rəsmi şəkildə təyin etdiyi din xadimləri tərəfindən idarə edilməlidir. Din xadimləri moizələrində Həzrət Hüseynin (ə) mübarizəsinin və Kərbəla faciəsinin mahiyyətini düzgün çatdırmalı, şəhidlik fəlsəfəsinin açıqlanmasına, habelə Vətən təəssübü və milli mənafelərimizin təbliğinə çalışmalıdırlar. İbadət məkanlarından kənar ərazilərdə kütləvi yürüşlərə çıxmaq, özünə və ətrafdakılara xəsarət yetirə biləcək alətləri, başqa ölkələrin bayraq və digər dövlət rəmzlərini mərasimlərə gətirmək yolverilməzdir. Əzadarlıq mərasimlərində dinimizin təyin etdiyi əxlaqi meyarlara riayət olunmalıdır. Soyunmaq, zəncir vurmaqla bədənə xəsarət yetirmək və baş yarmaqla qan çıxarmaq İslam qanunlarına ziddir və İmamın, Kərbəla şəhidlərinin xatirəsinə hörmətsizlikdir. Eləcə də, təziyə məclislərində uşaqların iştirakı qeyri-məqbuldur. Allah rizası üçün İmam Hüseynə (ə) məhəbbətini izhar etmək istəyənlər bu tövsiyələrə əməl etməlidirlər. Din xadimləri Qazılar Şurasının Fətvasını məscidlərdə oxumalı və bu tövsiyələrə bütün dini mərasimlərdə əməl olunmalıdır.

QMİ-nin təşəbbüsü ilə reallaşan və təziyə günlərində ehtiyacı olan xəstələr üçün təşkil edilən İmam Hüseyn xatirinə könüllü qanvermə aksiyaları cəmiyyətin təqdirini qazanıb. Respublika Səhiyyə Nazirliyi QMİ-nin başlatdığı bu kampaniyaya dəstək əlaməti olaraq məscidlərlə yanaşı, ibadət məkanlarına yaxın ərazilərdə yerləşən tibb məntəqələrində (xəstəxana və poliklinikalarda) də qanvermə aksiyalarının həyata keçirilməsini təmin edəcək. Kərbəla və Azərbaycan şəhidlərinin xatirəsinə qan verilməsinin təşkili ən münasib əzadarlıq nümunəsidir və din xadimlərimiz bu savab əməli lazımınca təbliğ etməlidirlər. Ümid edirik ki, möminlər Allaha xoş gedən bu gözəl ənənəni yaşadacaqlar və Allah-Təala minlərlə xəstə insana İmam Hüseynə xatir şəfa bəxş edəcəkdir, inşallah.

Bu gün dünyada, xüsusilə də müsəlman aləmində radikal qüvvələrin terror və təxribatçılıq fəaliyyəti nəticəsində müharibə və qırğınların artdığı bir dövrdə vətənimiz Azərbaycanda dövlət və xalq birliyi sayəsində ictimai asayiş və əmin-amanlıq mövcuddur. Ölkə müsəlmanları olaraq bu nemətə görə Allah-Təalaya şükürlər edirik. Konstitusiya quruluşunun əsaslarına və dövlətçiliyə qarşı təxribat xarakterli dini şüarların səsləndirilməsini, vətəndaşların din pərdəsi altında dövlətə qarşı itaətsizliyə çağırılmasını, məzhəb və etnik zəmində qarşıdurmaya təhriki qətiyyətlə pisləyir və hesab edirik ki, dövlətimiz və xalqımız belə əməllərə layiqli cavab verəcək, məkrli qüvvələrin İmam Hüseyn (ə) təziyadarlığından siyasi təxribatlar üçün istifadəsinə imkan verməyəcəkdir. Din xadimlərimizi və dindarlarımızı respublikamızdakı mövcud sabitliyin qorunması üçün çalışmağa, dindən sui-istifadə edərək məhərrəmlik mərasimlərində qarşıdurma yaratmağa çalışan qüvvələrə qarşı ayıq-sayıq olmağa çağırırıq. Din xadimləri və dindarlar mümkün hər hansı təxribatın qarşısını almaq üçün asayiş keşikçilərinə yardımçı olmalıdırlar. QMİ məzhəbindən asılı olmayaraq bütün ölkə müsəlmanlarına islami həmrəylik nümayiş etdirərək İmam Hüseyn (ə) mərasimlərində birgə iştirak etməyi, İmam (ə) və Kərbəla şəhidləri ilə yanaşı, Qarabağ, Xocalı şəhidlərimizin ruhuna dualar etməyi tövsiyə edir.

Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Azərbaycan dövlətçiliyinin əsasını qoymuş Ümummilli lider Heydər Əliyevə Allah-Təaladan rəhmət diləyir, dövlətimizin siyasi-iqtisadi və mənəvi inkişafı üçün misilsiz səylər göstərən, tolerantlığın və multikultural dəyərlərin təminatçısı və himayədarı olan, dünya miqyasında İslam həmrəyliyi ideyalarını müdafiə edən dövlətimizin başçısı İlham Əliyevin fədakar fəaliyyətinə Uca Allahdan inayət arzulayır, xalqımızın əmin-amanlığı və rifahı üçün dualar edir. Allah köməyimiz olsun!".

Sonra Ulu öndər Heydər Əliyevin 1995-ci ildə Təzəpir məscidində Aşura mərasimində iştirakı ilə bağlı videoxronika nümayiş etdirilib.

Daha sonra QMİ-nin yerlərdəki nümayəndələri çıxışlar ediblər.

# Sabunçu və Binəqədi rayonlarında “Dini mərasimlər: ənənəvilik və müasirlik” mövzusunda seminar-müşavirə keçirilib





Bakı şəhərinin Sabunçu və Binəqədi rayonlarında həmin rayonların İcra Hakimiyyətlərinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə “Dini mərasimlər: ənənəvilik və müasirlik” mövzusunda seminar-müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, seminar-müşavirədə deputatlar, rayonlarda fəaliyyət göstərən dini icmaların sədrləri, dini komissiyaların üzvləri, imamlar, kənd və qəsəbələrin icra nümayəndələri, bələdiyyə sədrləri, rayon Ağsaqqallar Şurasının üzvləri iştirak ediblər.

Sabunçu rayonunda keçirilən tədbiri giriş sözü ilə açan rayon İcra Hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Ədalət Teymurov rayonda mövcud dini durum haqqında məlumat verib. Ə.Teymurov DQİDK ilə birgə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətindən söhbət açaraq, dövlətimizin başçısının dini konfessiyalara daim yüksək diqqət və qayğı göstərdiyini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Dövlət Komitəsinin apardığı maarifləndirmə işi, qabaqlayıcı tədbirlər, Qafqaz Müsəlmanları İdarəsi, yerli icra strukturları və digər qurumlarla birgə səmərəli fəaliyyət barədə danışıb. Qeyd edib ki, Azərbaycanda həmişə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olub. Azərbaycanda tarixən İslam dininin müxtəlif təriqətlərinin birgəyaşayışı mövcud olub, təriqət baxımından qarşıdurma müşahidə edilməyib. Bu gün də məscidlərdə müxtəlif təriqətlərin daşıyıcıları dini ayinlərini bir yerdə icra edirlər, bir-birinə hörmətlə yanaşırlar.

Eyni zamanda, qarşıdan gələn Məhərrəm ayı və Aşura tədbirləri haqqında danışan Mübariz Qurbanlı bildirib ki, mərasimlər məscidlərdə və Qafqaz Müsəlmanları İdarəsinin fətvasına uyğun, qanun çərçivəsində, fətvada irəli sürülən tövsiyələrə riayət olunmaqla keçiriləcək. Bu və ya digər ayinlər həyata keçirilərkən qanuna əməl edilməlidir. Azərbaycan müsəlman dünyasının nümunəvi ölkəsidir. Bu mərasimlərdə xurafata heç bir halda yol vermək olmaz.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, Nardaran qəsəbəsi “Rəhimə xanım ziyarətgahı” məscidi dini icmasının sədri Musa Qasımov, “İmam Rza” məscidi dini icmasının sədri Əmirxan Tahirov dövlət başçısının dini icmalara dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı davamlı dəstək göstərməsini, dini ibadət yerlərinin təmiri və yenilərinin tikilməsini dövlətin dinə qayğısı kimi qiymətləndiriblər. Çıxış edənlər ölkədə dini maarifləndirmə işinin gücləndirilməsinin zəruriliyini vurğulayaraq, belə tədbirlərin təkcə dövlət-din münasibətlərinin inkişafına, dindarların maarifləndirilməsinə deyil, həmçinin ölkə dindarlarının dövlətə etimadının daha da artmasına xidmət etdiyini vurğulayıblar.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, dindarları narahat edən suallar cavablandırılıb.

* * *

Binəqədi Rayon İcra Hakimiyyətində keçirilən tədbiri giriş sözü ilə açan RİH-in başçısı Elxan Allahverdiyev respublikamızda mövcud olan dövlət-din münasibətləri, dinlərarası dialoq, dinlərarası tolerantlıq sahəsində həyata keçirilən dövlət siyasətindən bəhs edib. Qeyd edib ki, Ulu öndər Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün möhtərəm Prezident İlham Əliyevin davam və inkişaf etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Ölkəmizdə gündəlik həyat tərzinə, milli-mənəvi dəyərlərimizin tərkib hissəsinə çevrilmiş tolerantlıq və multikultural dəyərlər bütün dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək dövlət-din münasibətlərinin dünyadakı modelləri, sovet dövründə İslam dininə yanaşma, müstəqilliyin bərpasından sonra Azərbaycan xalqının milli-mənəvi dəyərlərə qayıdışı prosesi, bəzi dairələrin İslam dininin ideoloji cəhətdən zəiflədilməsinə yönəlmiş fəaliyyətinə toxunub. Qeyd edib ki, milli-mənəvi dəyərlərin qorunması, eləcə də tolerantlıq anlayışı, multikultural ənənələrin təbliği və təşviqi Dövlət Komitəsinin dini maarifləndirmə istiqamətində gördüyü işlərin əsas istiqamətlərini təşkil edir. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü və uzaqgörən siyasi kursun bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin sayəsində respublikamızda bütün dini konfessiyaların azad fəaliyyətinə tam şərait yaradılıb ki, bu da Azərbaycanı tolerantlıq baxımından dünyanın ən qabaqcıl ölkələri sırasına yüksəldir.

Mübariz Qurbanlı çıxışında dini radikalizmə və dini xurafata qarşı mübarizənin əhəmiyyətini və aktuallığını diqqətə çatdırıb və vurğulayıb ki, bütün problemlərin həlli dini mükəmməl şəkildə öyrənməkdir. Bu il də Məhərrəmlik mərasimlərinin Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının fətvasına uyğun keçirilməsi, qanvermə aksiyasının təşkil edilməsi planlaşdırılıb. **“Yəni zəncir vurmaq, qan çıxarmaq, özünə xətər yetirmək kimi əməllər qəbul edilən deyil və bunlar sonradan meydana çıxan, uydurulmuş hərəkətlərdir. Biz də bu əməllərin əleyhinəyik. Qafqaz Müsəlmanları İdarəsi də bu cür çağırışlar edir”,** - deyə komitə sədri vurğulayıb.

Milli Məclisin deputatı Madər Musayev, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Qafqaz Müsəlmanları İdarəsinin Binəqədi rayonu üzrə səlahiyyətli nümayəndəsi Şahbala Əliməmmədov, rayon dindarları çıxışlarında xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli-mənəvi dəyərləri qoruyub saxlamağın əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, milli dəyərlərimizin qorunması və inkişafı Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Ümummilli lider Heydər Əliyevin yaratdığı müasir Azərbaycan Onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. Ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədə qurulub və dindarlar hər zaman dövlətin maddi-mənəvi dəstəyini hiss edirlər.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Azərbaycan ilə Rusiya arasındakı münasibətlər strateji xarakter daşıyır




Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Soçidə keçirilən görüşündə bir çox məsələlər, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub, ondan çox vacib sənəd imzalanıb. Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin son üç ayda üç görüşü baş tutub. Bu görüşlər yaxın dostların və müttəfiqlərin mütəmadi görüşləridir.

Bu sözləri sentyabrın 4-də “Sputnik Azərbaycan” multimedia mətbuat mərkəzində keçirilən mətbuat konfransında Rusiyanın Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq və ictimai xadim Sergey Markov deyib.

Politoloq bildirib ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər həm prezidentlər səviyyəsində, həm də iqtisadi, siyasi və humanitar sahələrdə inkişaf edir. Diaspor üzvləri hər iki dövlətdə rahat fəaliyyət göstərirlər. Qeyd olunub ki, Cənubi Qafqaz ölkələri arasında rus dili ən çox Azərbaycanda yayılıb və bu, Rusiya tərəfindən yüksək qiymətləndirilir. Bütün bu amillər onu göstərir ki, ölkələrimiz arasında strateji əməkdaşlıq mövcuddur.

Sergey Markov vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan üçün ən vacib məsələdir. Lakin Ermənistanda baş verən hakimiyyət böhranı danışıqlar prosesini ləngidir. Prezident Vladimir Putinin Soçidə mətbuata bəyanatında dediyi kimi, Minsk qrupunun həmsədri kimi Rusiya bu münaqişənin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərməkdə davam edəcək.

Rusiya Siyasi Tədqiqatlar İnstitutu direktorunun müavini Darya Qrebtsova bildirib ki, Rusiya və Azərbaycan prezidentlərinin Soçi görüşü Ermənistan mətbuatının yazdığına görə bu ölkədə ciddi gərginlik doğurub. Buna səbəb isə Rusiyanın Türkiyə ilə münasibətlərinin sürətlə inkişaf etməsidir. Çünki Azərbaycan Türkiyənin dostu, qonşusu və strateji tərəfdaşı olaraq Rusiya ilə Türkiyənin bir-birinə yaxınlaşmasında maraqlıdır. Üç dövlətin bir-birini dəstəkləməsi Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həlli işinə müsbət təsir göstərəcək.

Darya Qrebtsova qeyd edib ki, humanitar sahədə əməkdaşlığın dərinləşdirilməsi də Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşündə diqqət mərkəzində olub. Gələn ay Azərbaycanda növbəti Bakı Beynəlxalq Humanitar Forumu keçiriləcək. Foruma bütün dünyadan alimlər, siyasi xadimlər qatılır. Forum iştirakçıları Azərbaycana gəlib buranın inkişafını öz gözləri ilə görürlər və bu ölkənin dostu olurlar. Tədbir iştirakçıları vətənlərinə qayıdandan sonra Azərbaycanda işlərin əslində necə olduğunu danışırlar. Çünki bir çoxları Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı rayonların işğal olunmasından xəbərsizdirlər. Bu forum Azərbaycan torpaqlarının işğal olunması haqqında məlumatın beynəlxalq ictimaiyyətə çatdırılmasında vacib rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyev bu işi forumda müvəffəqiyyətlə görür.

Direktor müavini, həmçinin diqqətə çatdırıb ki, Rusiya və Azərbaycan arasında münasibətlər bir çox sahələrdə uğurla inkişaf edir, ölkələrimiz bir-birinə daha da yaxınlaşır.

Sonda jurnalistlərin sualları cavablandırılıb.

# Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır

*Ekspertlər qeyd edirlər ki, Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri iki ölkə arasında münasibətlərin inkişafına xidmət etməklə yanaşı, regional əməkdaşlığın dərinləşməsinə mühüm töhfələr verir*



*Aydın Hüseynov: Rusiya-Azərbaycan münasibətləri qarşılıqlı faydalı əməkdaşlığa əsaslanır və hər iki ölkənin milli maraqlarına cavab verir*



*Rauf Əliyev: Rusiya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin nizamlanması prosesində yaxından iştirak edir*

Milli maraqlara əsaslanan xarici siyasət kursuna malik olan Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində mövqeyi mütəmadi olaraq möhkəmlənir. Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara müvafiq surətdə reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb. Regionda sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan, eyni zamanda, beynəlxalq miqyasda əməkdaşlıq və təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirir. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə daha çox regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Hazırda Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında davamlı yüksəlişə malikdir. Şübhəsiz, bütün bunların əsasında güclü siyasi iradəyə söykənən müstəqil strateji kurs dayanır.

Azərbaycanın xarici siyasət kursunda Rusiya Federasiyası ilə qarşılıqlı faydalı münasibətlər mühüm yer tutur. İki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Ekspertlər qeyd edirlər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri isə iki ölkə arasında strateji tərəfdaşlıq və dostluq münasibətlərinin inkişafı baxımından müstəsna əhəmiyyətə malikdir.

Milli Məclisin deputatı, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə İşçi Qrupunun üzvü Aydın Hüseynov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri həm iki ölkə arasında münasibətlərin, həm də bütövlükdə bölgədə əməkdaşlığın inkişafı baxımından xüsusi önəm daşıyır: **“Rusiya-Azərbaycan münasibətləri qarşılıqlı faydalı əməkdaşlığa əsaslanır və hər iki ölkənin milli maraqlarına cavab verir”.**

Rusiya ilə Azərbaycan arasında iqtisadi əlaqələrin də uğurla inkişaf etdiyini qeyd edən millət vəkili əlavə edib ki, tərəflər arasında əmtəə dövriyyəsinin artması təqdirəlayiq haldır. **“Ötən ilin yekununa görə, Rusiya və Azərbaycan arasında əmtəə dövriyyəsi, demək olar ki, 35 faiz artaraq 2,5 milyard dollara çatıb. Bu, olduqca müsbət göstəricidir. Digər tərəfdən, Rusiya idxala görə Azərbaycan üçün bir nömrəli tərəfdaşdır və qeyri-neft sahəsinin azərbaycanlı ixracatçıları üçün birinci yerdədir. Bununla yanaşı, tərəflər arasında mühüm investisiya layihələri həyata keçirilir”,** - deyə A.Hüseynov vurğulayıb. Onun sözlərinə görə, Rusiya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın böyük potensialı var.

Millət vəkili qeyd edib ki, səfər çərçivəsində Rusiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlığa dair mühüm sənədlərin imzalanması iki ölkə münasibətlərinin inkişafına əhəmiyyətli töhfələr verəcək.

Milli Məclisin deputatı Rauf Əliyev isə vurğulayıb ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bağlayır. Onun sözlərinə görə, Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri iki ölkə arasında münasibətlərin inkişafına xidmət edir: **“Cənubi Qafqazın lider dövləti olan Azərbaycan uğurlu və səmərəli xarici siyasət həyata keçirir və ölkəmizin beynəlxalq münasibətlər sistemində mövqeyi mütəmadi olaraq möhkəmlənir. Azərbaycan regional əməkdaşlıq və təhlükəsizlik məsələlərinə də xüsusi diqqət yetirir və mühüm əhəmiyyət verir. Ölkəmizin Rusiya ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafı da regional əməkdaşlıq və təhlükəsizliyə əhəmiyyətli töhfədir. Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri bu münasibətlərin daha da inkişafı və dərinləşdirilməsi baxımından strateji önəm kəsb edir”.**

Millət vəkili onu da bildirib ki, Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin də diqqət mərkəzində olması xüsusilə qeyd edilməlidir: **“Rusiya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində yaxından iştirak edir. Şübhəsiz ki, ATƏT-in Minsk qrupunun həmsədri olan Rusiya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin nizamlanmasında səylərini bundan sonrada davam etdirəcək”,** - deyə R.Əliyev əlavə edib.

**Nurlan QƏLƏNDƏRLİ**

# Azərbaycan və Rusiya liderlərinin səmimi münasibətləri ölkələrimiz arasında əməkdaşlığın inkişafına kömək edir



Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri və Prezident Vladimir Putinlə görüşü iqtisadi əməkdaşlığın prioritet istiqamətləri barədə Birgə Bəyanatın, habelə bir sıra mühüm sənədlərin, o cümlədən nəqliyyat, neft-qaz, idman, turizm, rəqəmsal sistemlər sahələrində sazişlərin imzalanması ilə başa çatdı. Prezidentlərimiz arasında gözəl şəxsi münasibətlər sonda bu müqavilələrə transformasiya edir.

RF Dövlət Dumasının Müstəqil Dövlətlər Birliyi məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə Əlaqələr Komitəsinin sədri Leonid Kalaşnikov bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib.

Rusiyalı deputat qeyd edib ki, iki ölkənin liderləri arasında səmimi dostluq münasibətləri əməkdaşlığın bütün istiqamətlərində əlaqələrin inkişafına kömək edir. Leonid Kalaşnikov vurğulayıb: **“Deməliyəm ki, “quru” rəqəmlər və faktlar arxasında uzun illər boyu bizim münasibətlərimizdə təzahür edən səmimiyyət var. Mən Prezident İlham Əliyevi yaxşı tanıyıram və bilirəm ki, O, Rusiyaya çox səmimi münasibət bəsləyir. Bu həm də onda təzahür edir ki, Azərbaycanda rus dili təbliğ edilir, rus məktəbləri fəaliyyət göstərir. Mən özüm dəfələrlə həmin məktəblərdə olmuşam. Azərbaycanın necə inkişaf etdiyi, Bakının necə gözəlləşməsi göz qabağındadır. Mən heç yerdə belə gözəl Dənizkənarı Bulvar görməmişəm”.**

Deputatın fikrincə, Rusiya və Azərbaycan bütün problemləri birgə həll edə bilərlər. O vurğulayıb: **“Əlbəttə, Azərbaycanda da, bizim ölkədə də elə daxili və xarici problemlər var ki, onları birgə həll etmək, neft-qaz sahəsinin, turizm sahəsinin inkişafı üçün səyləri birləşdirmək lazımdır”.**

Rusiyalı deputat Azərbaycanın turizm potensialının Rusiyada təbliğini gücləndirməyin vacibliyini qeyd edərək deyib: **“Azərbaycandakı bəzi turizm obyektləri xarici ölkələrdəki kurortlarla müqayisədə qat-qat yaxşı və maraqlıdır. Mən heç gözləməzdim ki, Rusiyadakı kimi təbii şəraiti olmayan Azərbaycan qış turizmi sahəsində bu qədər irəliləyib. Mən tez-tez deyirəm ki, Azərbaycanın kurort potensialını rusiyalılar arasında daha çox təbliğ etmək lazımdır”.**

L.Kalaşnikov parlamentlərarası münasibətlər mövzusuna toxunaraq qeyd edib ki, ölkələrimizin parlamentləri arasında praktiki dialoq nizamlanıb. Deputat deyib: **“Bu yaxınlarda Rusiya parlament nümayəndə heyətinin Azərbaycana səfəri zamanı biz bir təklif irəli sürdük və həmin təklif Azərbaycan tərəfindən dəstəkləndi. Hazırda Azərbaycanda Rusiyanın ondan çox şəhəri ilə qardaşlaşmış şəhərlər var. Bu, regionlararası əməkdaşlığın genişlənməsi üçün yaxşı təməl yaradır. Biz Rusiya Dövlət Duması ilə Azərbaycan Milli Məclisi arasında yüksək səviyyəli parlamentlərarası komissiya yaradılması formatını da təklif etdik”.**

L.Kalaşnikov ölkəmizin müasir inkişaf səviyyəsinə çatmasında Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin rolunu xüsusi vurğulayıb. Deputat deyib: **“Dünən mən “Zvezda” telekanalının “Yeri gəlmişkən” (“Mejdu tem”) verilişində çıxış edərkən Heydər Əliyevi nümunə göstərdim və Prezidentin Öz vədlərini necə yerinə yetirməli olması barədə danışdım. Heydər Əliyev xalqın təkidi ilə ölkə rəhbərliyinə qayıdanda Bakının küçələrində silahlı dəstələr qaynaşırdı, bütün oriyentasiya pozulmuşdu. Onda Heydər Əliyev dedi: “Mən qayda yaradacağam, hamı ilə razılığa gələcəyəm”. O, prezident olandan sonra həmin silahlı adamların yanına getdi, rus diasporunun və digər icmaların nümayəndələri ilə görüşdü. Deməliyəm ki, bu, bizim bu gün hakimiyyətdə olanların çoxu üçün örnəkdir - rəhbərin öz xalqına və öz dövlətinə necə münasibət bəsləməli, bütün xırda məqamları kənara ataraq xalq haqqında düşünməli olması barədə örnək. Mənim iş kabinetimdəki şkafda bir fotoşəkil var: mən, Gennadi Zuqanov və İlham Əliyev birlikdə çəkdirmişik. İlham Əliyevin dövlətə necə rəhbərlik etdiyini mən çox yüksək qiymətləndirirəm, Ona uğurlar arzulamaq və Onu əmin etmək istəyirəm ki, mən bir parlamentari kimi Azərbaycana kömək etməyə həmişə hazıram”.**

# Elmir Vəlizadə: Nəqliyyat sahəsində Azərbaycan-Rusiya əməkdaşlığı yeni müstəviyə və inkişaf mərhələsinə keçir



Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri zamanı sentyabrın 1-də Soçidə Azərbaycan və Rusiya prezidentlərinin iştirakı ilə imzalanan çoxlu sayda sənədlər iki ölkə arasındakı siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin inkişafının yeni mərhələyə qədəm qoymasına səbəb olacaq. Azərbaycan və Rusiya arasında nəqliyyat sahəsində mövcud münasibətlərin genişləndirilməsi və hüquqi bazanın formalaşdırılması istiqamətində imzalanan "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında rəqəmsal nəqliyyat sistemləri sahəsində əməkdaşlıq haqqında Memorandum" da bu sənədlərdən biridir. Memorandum nəqliyyat sahəsində Azərbaycan-Rusiya əməkdaşlığının yeni müstəviyə və inkişaf mərhələsinə keçməsinə xidmət edəcək.

Bu sözləri AZƏRTAC-a nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə deyib.

Nazir müavini qeyd edib ki, həmin sənədin imzalanması Azərbaycan və Rusiya arasında nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin rəqəmsal infrastrukturunun yaradılması üzrə əməkdaşlığın genişləndirilməsinə, hər iki dövlətdə informasiya-kommunikasiya texnologiyalarının nəqliyyat sahəsində tətbiqinə, innovasiya texnologiyalarının yaradılması və öyrənilməsi üzrə elmi-tədqiqat, texnoloji və eksperimental proqramların, layihələrin həyata keçirilməsinə, əldə edilmiş təcrübə və bilik mübadiləsinə səbəb olacaq.

**"İmzalanmış sənəd ölkələrimiz üçün mühüm əhəmiyyət daşıyan sənədlərdən biridir. Memorandum nəqliyyat sahəsində Azərbaycan və Rusiya arasında əməkdaşlığın yeni müstəviyə və inkişaf mərhələsinə keçməsinə xidmət edəcək",** - deyə E.Vəlizadə qeyd edib.

Nazir müavini bildirib ki, memorandumda nəqliyyat sahəsində logistika, innovativ texnologiyalar və mövcud informasiya sistemlərinin inkişafında ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsi qeyd olunur: **"Bu baxımdan da həm ölkələrarası, həm də ölkələrin özündə bu sahədə işlərin görülməsi müddəası da sənəddə öz əksini tapıb. Bütün bunlar onu göstərir ki, bu sənədin imzalanması üçün ölkələrdə artıq müəyyən əsas, bünövrə mövcuddur. Həm Azərbaycanın, həm Rusiyanın informasiya-kommunikasiya texnologiyalarının xüsusilə də nəqliyyat sahəsində tətbiqi üzrə müsbət təcrübələri mövcuddur. Hesab edirik ki, bu təcrübələrin bölüşülməsi çox vacibdir".**

**"Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üçün memorandumda xüsusi müddəalar da nəzərdə tutulub. Nəqliyyat infrastrukturunun ilə yanaşı, bu sahədə informasiya texnologiyalarının infrastrukturunun inkişaf etdirilməsi nəzərdə tutulub. Azərbaycan qarşısına qoyduğu nəqliyyat-tranzit, logistika mərkəzinə çevrilməsi hədəfinə yaxınlaşır. Artıq bizim buna müəyyən potensialımız da var. Azərbaycanın yaratdığı infrastruktur, yəni, avtomobil yolları, dəmir yolları, Bakı Beynəlxalq Ticarət Limanı və sair buna tam şəkildə imkan yaradır. Bu baxımdan, ölkələrimiz üçün "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi çox mühüm əhəmiyyətə malikdir. Bu gün dəhliz iki ölkənin iqtisadi potensialını yüksəldir. Hesab edirəm ki, imzalanmış memorandum bizə yeni bir mərhələyə keçməyə imkan yaradacaq, ölkələrimiz arasındakı əməkdaşlıq daha da inkişaf edəcək",** - deyə nazir müavini vurğulayıb.

# Azərbaycan komandası III Dünya Köçəri Oyunlarının mas-reslinq yarışında üç medal qazanıb





Azərbaycan milli komandası Qırğızıstanda keçirilən III Dünya Köçəri Oyunlarının mas-reslinq yarışında iki gümüş və bir bürünc medala sahib olub. AZƏRTAC xəbər verir ki, Yakutiyanın milli idman növü olan mas-reslinq yarışında Nərgiz İbrahimova (75 kq) və Rəsul Səfərov (60 kq) gümüş medal qazanıblar. Yarışda 80 kiloqram çəki dərəcəsində çıxış edən Sultan Ağayev isə komandamızın aktivinə bürünc medal yazdırıb.

# Dayanıqlı İnkişaf Məqsədləri üzrə gənclər üçün yay məktəbinin açılışı olub



Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) birgə icra etdiyi "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakını dəstəkləmək üçün yeni əsasların yaradılması" layihəsi çərçivəsində sentyabrın 4-də Binəqədi Gənclər Evində Dayanıqlı İnkişaf Məqsədləri üzrə yay məktəbinin açılışı olub.

AZƏRTAC xəbər verir ki, sentyabrın 6-dək davam edəcək yay məktəbinin açılış mərasimində çıxış edən gənclər və idman nazirinin müavini İntiqam Babayev Azərbaycan gəncliyinin inkişafında BMT İP-nin rolunu vurğulayıb. O, bu ilin may ayından etibarən daha iki il müddətinə davam etdirilməsinə qərar verilən "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakını dəstəkləmək üçün yeni əsasların yaradılması" layihəsinin əsas istiqamətlərinin Azərbaycan gəncliyinin inkişaf imkanlarının genişləndirilməsi üçün zəruri sahələri əhatə etdiyini diqqətə çatdırıb. Eyni zamanda, layihə çərçivəsində seçiləcək və keçdiyimiz günlərdə elanı verilmiş 17 Dayanıqlı İnkişaf Məqsədi üzrə "Gənc səfirlər" təşəbbüsünün əhəmiyyətindən bəhs edən İ.Babayev bu təşəbbüsün Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün gənclərin yaxından iştirakının təmini yönündə ən nümunəvi addımlardan olduğunu bildirib.

Yay məktəbinin açılış mərasimində iştirak edən BMT İP-nin Azərbaycan ofisinin rezident nümayəndəsinin müavini Alessandro Frakassetti təmsil etdiyi qurum ilə Gənclər və İdman Nazirliyinin bu günə qədər icra etdiyi layihələr nəticəsində əldə olunan uğurlardan söz açıb. A.Frakassetti BMT İP-nin ölkə gənclərinin qlobal çağırışlara dayanıqlılığının möhkəmləndirilməsi və milli inkişaf gündəliyində yer alan məsələlərin reallaşdırılmasında onların bacarıqlarından səmərəli istifadə istiqamətində dövlət gənclər siyasətini yaxından dəstəklədiyini qeyd edib.

Qeyd edək ki, üç günlük yay məktəbinin birinci günündə Azərbaycanın BMT Modeli şəbəkəsinin və müxtəlif gənclər təşkilatlarının fəal nümayəndələrindən ibarət iştirakçı heyət layihə rəhbəri Məzahir Əfəndiyev tərəfindən keçiriləcək Dayanıqlı İnkişaf Məqsədləri haqqında təlimdə iştirak edəcəklər. Gənclər Dayanıqlı İnkişaf Məqsədləri və onların xüsusi hədəfləri, bu məqsədlərə nail olmaq istiqamətində gənclərin rolu, habelə Dayanıqlı İnkişaf Məqsədlərinin lokallaşdırılaraq milli miqyasda onların reallaşdırılması mövzularında maarifləndiriləcəklər. Gənclər təlimdən öyrəndikləri bilikləri yay məktəbinin növbəti iki günündə baş tutacaq "Milli miqyasda Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üzrə azərbaycanlı gənclərin rolu" üzrə yekun sənədin hazırlanmasında və Dayanıqlı İnkişaf üzrə Yüksək Səviyyəli Siyasi Forumun simulyasiyasına həsr olunmuş sessiyalarda tətbiq etmək imkanı qazanacaqlar.



Eyni zamanda, yay məktəbinin ikinci günündə Azərbaycanda könüllülük fəaliyyətinin genişləndirilməsi və beynəlxalq təcrübəyə uyğunlaşdırılması istiqamətində BMT Könüllülər Proqramı və onlayn könüllülük prinsipləri haqqında təqdimat keçiriləcək.

Qeyd edək ki, qlobal məqsədlər kimi də tanınan Dayanıqlı İnkişaf Məqsədləri 2015-ci ilin sentyabrında BMT Baş Assambleyası tərəfindən qəbul olunub. Dayanıqlı İnkişaf Məqsədlərinin ölkəmizdə reallaşdırılması istiqamətində dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının səmərəli əlaqələndirilməsi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

# Dünya Köçəri Oyunları çərçivəsində keçirilən "Köçərilərin qızıl əsri" adlı teatrlaşdırılmış şouya azərbaycanlı qonaqlar da qatılıb



İssık-Kul gölünün sahillərində keçirilən III Dünya Köçəri Oyunları çərçivəsində "Kırçın" etnoşəhərciyində "Köçərilərin qızıl əsri" adlı teatrlaşdırılmış şou keçirilib. Tədbirdə Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov, Macarıstanın Baş naziri Viktor Orban, hökumət və parlament üzvləri, elm, mədəniyyət, incəsənət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Dünya Köçəri Oyunlarına Azərbaycandan qonaq kimi dəvət olunan Milli Məclisin deputatı "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid və "Səs" Media Qrupunun rəhbəri Bəhruz Quliyev də tədbirdə iştirak ediblər.

Meydanda 1000-dən çox yurt - çadır salınıb, mərasim iştirakçıları burada qırğız xalqının tarixi, adət-ənənələri və milli mətbəxi ilə tanış olublar.

Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov III Dünya Köçəri Oyunlarının başlaması münasibətilə iştirakçıları təbrik edib. Dövlət başçısı məlumat verib ki, sentyabrın 3-də Çolpon-Ata şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının altıncı Zirvə görüşü uğurla keçirilib. Görüşdə Azərbaycan, Qazaxıstan, Türkiyə prezidentləri iştirak ediblər. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Macarıstanın Baş naziri Viktor Orban Şuranın iclasına qonaq kimi dəvət olunub. **"Biz daha yaxından əməkdaşlıq etmək haqqında ümumi qərara gəldik. Mən çox şadam ki, estafeti Türkiyəyə verdik və 2020-ci ildə Köçəri Oyunları bu ölkədə keçiriləcək",** - deyə Sooronbay Jeenbekov bildirib.



Sonra qırğız çaparları teatrlaşdırılmış şou göstərib, tədbir geniş konsert proqramı ilə başa çatıb.

# Azərbaycan idmançıları III Dünya Köçəri Oyunlarında uğurla çıxış edirlər





Azərbaycan idmançıları Qırğızıstanda keçirilən III Dünya Köçəri Oyunlarına uğurla başlayıblar.

AZƏRTAC xəbər verir ki, kəmər güləşi yarışlarında Gözəl Zotova Gürcüstan, Özbəkistan və Rusiya idmançılarına qalib gələrək finala yüksəlsə də, həlledici görüşdə uduzduğundan gümüş medalla kifayətlənməli olub. Elməddin Ramazanov isə üçüncü yer uğrunda görüşdə yaponiyalı idmançıya qalib gələrək bürünc medala layiq görülüb.

Qol güləşi yarışında 105 kiloqram çəki dərəcəsində Rəşad İsrafilov və Rüstəm Qurbanov hər biri gümüş və bürünc medallara sahib olublar.

Həmçinin 95 kiloqram çəki dərəcəsində Elsevər Xasıyev və Zöhrab Məsimov bürünc medallar qazanıblar.

# Ceyson Quberman: Azərbaycanın multikulturalizm təcrübəsindən istifadə olunması zəruridir

Amerika Sefard Federasiyasının icraçı direktoru Ceyson Qubermanın rəhbərlik etdiyi nümayəndə heyəti Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) qonağı olub.

Bu barədə AZƏRTAC-a Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin mətbuat xidmətindən məlumat veriblər.



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov amerikalı qonaqlara BBMM-in fəaliyyəti, həyata keçirilən layihələr və ölkəmizdə uğurla davam etdirilən multikultural mühit haqqında məlumat verib. O bildirib ki, Prezident İlham Əliyev multikulturalizmin qorunub saxlanmasına böyük önəm verir. Azərbaycanda tolerantlıq mühitinin hazırkı səviyyəyə gəlib çatması dövlətimizin başçısının apardığı siyasətin, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir, həyat tərzidir. Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir. Azərbaycan dövlətinin həyata keçirdiyi tolerantlıq siyasəti ölkəmizdə yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə zəmin yaradır. Bütün bunlar Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin uğurlu davamının nəticəsidir.

Diqqətə çatdırılıb ki, azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, eləcə də Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək Mərkəzin əsas məqsədidir. Bu gün Azərbaycan multikulturalizmi fənni dünyanın iyirmiyə yaxın universitetində tədris olunur. BBMM-in doqquz ölkədə filialı var.

Amerika Sefard Federasiyasının icraçı direktoru Ceyson Quberman rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində bir sıra qurumlarda, eləcə də bölgələrdə yaşayan yəhudi icmasının nümayəndələri ilə görüşlər keçirəcəklərini, ölkəmizdə mövcud olan multikultural mühit, xalqımızın tolerantlıq ənənələri ilə yaxından tanış olmaq arzularını bildirib. Qeyd edib ki, Azərbaycan multikulturalizminin fənn kimi dünya elm ocaqlarında tədris edilməsi təqdirəlayiqdir və bu iş davam etdirilməli, müxtəlif xalqların, dini konfessiyaların birgəyaşayış mədəniyyəti bütün dünyaya çatdırılmalıdır. O, Azərbaycandakı müxtəlif dini icmaların sıx əməkdaşlığının, dostluğunun təqdirəlayiq olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan öz nümunəsi ilə digər ölkələri həvəsləndirir və onun təcrübəsinin istifadə olunması zəruridir.

# Dövlət Komitəsində QHT rəhbərlərinin bir qrupu ilə görüş keçirilib



Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində qeyri-hökumət təşkilatlarının rəhbərlərinin bir qrupu ilə görüş keçirilib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaş cəmiyyəti quruculuğunda və ölkəmizdə demokratiyanın daha da dərinləşməsində qeyri-hökumət təşkilatlarının rolunu yüksək qiymətləndirərək, qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsində də onların dəstəyinin mühüm əhəmiyyət daşıdığını qeyd edib. Bildirilib ki, Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə tənzimlənməsi, torpaqlarımızın işğaldan tezliklə azad edilməsi üçün qətiyyətli və məqsədyönlü siyasət aparmaqla yanaşı, müharibədən zərər çəkən insanların, məcburi köçkünlərin sosial problemlərinin həllini prioritet istiqamət kimi müəyyənləşdirib. Azərbaycan dövləti onların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına, məşğulluğunun təmin edilməsinə xüsusi diqqət yetirir. Birinci vitse-prezident xanım Mehriban Əliyevanın tapşırığı əsasında, müvəqqəti məskunlaşma yerlərində ağır vəziyyətdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi davam etdirilir. Bu il istifadəyə verilmiş "Qobu Park" yaşayış kompleksinə Bakıda qəzalı vəziyyətdə olan binalardan və zirzəmilərdən yüzlərlə məcburi köçkün ailəsi köçürülüb. Bu məqsədlə yeni yaşayış binaları inşa edilir, məcburi köçkünlər üçün qəsəbələr salınır.

Komitə sədri məcburi köçkünlərin hüquqi cəhətdən maarifləndirilməsinə, onlarda vətənpərvərlik ruhunun yüksəldilməsinə, doğma torpağa bağlılıq hissinin gücləndirilməsinə qeyri-hökumət təşkilatlarının daha böyük töhfələr verə biləcəklərini vurğulayıb, onları bu istiqamətdə birgə fəaliyyət göstərməyə dəvət edib.

Görüşdə QHT rəhbərləri çıxış edərək məcburi köçkünlərin problemlərinin həlli sahəsində həyata keçirilən tədbirlərə dair fikirlərini ifadə edib, Dövlət Komitəsinin fəaliyyəti ilə bağlı rəy və mülahizələrini bildirib, bir sıra təkliflər irəli sürüblər.

Prezident İlham Əliyevin apardığı siyasətin xalqımızın və dövlətimizin mənafeyinə tam cavab verdiyini, torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyinə dərin inam yaratdığını qeyd edən QHT rəhbərləri vətəndaş cəmiyyəti institutlarının, ictimai təşkilatların məcburi köçkünlərin böyük qayıdışa hazırlanmasına bundan sonra da fəal dəstək verəcəklərini bildiriblər.

Dövlət Komitəsində qeyri-hökumət təşkilatlarının rəhbərləri ilə görüşlərin və birgə fəaliyyətin davamlı olacağı diqqətə çatdırılıb.

# Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş olub

Sentyabrın 4-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş keçirilib.

Bu barədə AZƏRTAC-a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib.

Dövlət Komitəsinin sədri, sədr müavinləri, şöbə və departament rəhbərlərinin iştirak etdiyi görüşdə Bakı şəhəri və digər bölgələrdən gələn məcburi köçkünlərin müraciətlərinə baxılıb.

Müraciətlər, əsasən, mənzil-məişət, kommunal, statusun verilməsi və məşğulluqla bağlı olub.

Komitə sədri onları fərdi qaydada dinləyib, müraciətləri ilə bağlı geniş izahat verilib.



Məcburi köçkünlərə məlumat verilib ki, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Məcburi köçkünlərə göstərilən diqqət və qayğının nəticəsidir ki, onlar müvəqqəti yaşayış yerləri və çadır düşərgələrindən müasir, bütün zəruri infrastrukturu qurulmuş qəsəbələrə köçürülüblər. Prezident İlham Əliyevin rəhbərliyi ilə ərazilərimiz işğaldan azad edildikdən sonra bu cür qəsəbələr həmin ərazilərimizdə də salınacaq.

Dövlət Komitəsinin sədri müraciətlərin qısa müddətdə araşdırılacağını və müvafiq tədbirlər görüləcəyini bildirib.

# Şəkili sənətkar 270 ilə yaxın yaşı olan qədim şəbəkə nümunəsini bərpa edir



Tanınmış şəbəkə ustası Hüseyn Hacımustafazadə 30 ilə yaxındır ki, Şəki sənətkarlarının misilsiz sənət ənənələrini böyük sevgi ilə davam etdirir, bu qədim el sənətini yaşadır. Şəbəkə sənətinin sirlərinə mükəmməl yiyələnən bu el sənətkarının əl işləri nəinki ölkəmizdə, onun hüdudlarından kənarda da böyük maraq doğurur, əsərləri bir sıra xarici ölkələrin muzeylərini bəzəyir, sərgilərdə nümayiş etdirilir.

Hüseyn Hacımustafazadə yeni şəbəkələr hazırlamaqla yanaşı, qədim şəbəkə nümunələrini bərpa etmək, gələcək nəsillərə çatdırmaq məqsədi ilə də axtarışlar edir, Şəkinin qədim evlərindən tapdığı şəbəkə nümunələrinə yeni nəfəs verməyə çalışır. Hazırda Hüseyn usta 270 ilə yaxın yaşı olan qədim şəbəkə pəncərənin bərpası üzərində işlərə başlayıb.

Sənətkar AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində bildirib ki, şəhərin "Otaq eşiyi" adlanan ərazisindəki qədim evdən götürülən bu şəbəkə pəncərənin şüşələri yaxşı vəziyyətdə qalsa da, taxta hissələri çürüyüb sıradan çıxıb. Onun sözlərinə görə, şəbəkə pəncərənin bərpası zamanı 1000-dən artıq detal və rəngli şüşədən istifadə olunacaq. Bütün taxta hissələr yenilənməlidir. Şəbəkənin bərpasına 3 ay vaxt lazımdır. **"İstəyirəm ki, bu əsəri Parisdə təşkil olunacaq növbəti sərgidə nümayiş etdirim. Azərbaycanın, Şəkimizin necə qədim mədəni irsə malik olduğunu xaricdə də təbliğ edim, ölkəmizin mədəni dəyərlərinin tanıdılmasında mənim də zərrə qədər də olsa əməyim, zəhmətim olsun",** - deyə Hüseyn usta bildirib.

Xatırladaq ki, Hüseyn Hacımustafazadə ötən il də 270-ə yaxın yaşı olan qədim şəbəkə nümunəsini bərpa edib. Şəmsi və nəbati naxışlardan toxunan şəbəkənin hazırlanmasında 800-dək detal və rəngli şüşədən istifadə olunub. Bu əsər ilk dəfə cari ilin fevralında Moskva şəhərində, Rusiya Dövlət Dumasının binasında Azərbaycan və Rusiya arasında diplomatik əlaqələrin qurulmasının 25 illiyinə həsr edilmiş sərgidə, daha sonra mayda Şanxay Əməkdaşlıq Təşkilatının Pekindəki mənzil qərargahında Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən Azərbaycan mədəniyyəti günü çərçivəsində təşkil olunan sərgidə uğurla nümayiş etdirilib və böyük marağa səbəb olub.

Bərpa olunan qədim şəbəkənin özəllikləri barədə danışan Hüseyn usta deyib: **"Qədim şəbəkə nümunələri ilə müasir şəbəkələr arasında xeyli fərq var. Qədim şəbəkələrdə İtaliyadan gətirilən rəngli şüşələrdən istifadə olunurdu. Qalınlığı 1 millimetr olan belə şüşələrlə işləmək ustalar üçün daha asan idi. Eşitdiyimə görə, vaxtilə Şəki xanı Hüseyn xan yerli sənətkarlar üçün İtaliyadan belə şüşələr gətirdib. Müasir şəbəkələrdə isə Rusiyadan gətirilən 3 millimetr qalınlığında zavod şüşələrindən istifadə edirik. Bu şüşələr bir az parıltılı olduğu üçün gözü qamaşdırır. Qədim şəbəkə nümunələrinə isə nə qədər çox baxsan da göz yorulmur. Ona görə də sənətsevərlər belə əsərlərə həmişə yüksək qiymət verirlər".**

Ümumiyyətlə, Hüseyn Hacımustafazadənin yaradıcılığında qədim şəbəkə nümunələrinin bərpası xüsusi yer tutur. Sənətkar Şəkinin məşhur tarixi-memarlıq abidələrindən olan Şəki xanlarının sarayının, "Yuxarı Karvansaray" mehmanxana kompleksinin, Şəkixanovların ev-muzeyinin, həmçinin Gəncə və Bərdə şəhərlərindəki qədim məscidlərin şəbəkə pəncərələrinin bərpasında da yaxından iştirak edib.

# Gəncədə sakinlərin problemləri dinlənilib



Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Heydər Əliyev prospekti ilə İsrafil Məmmədov küçəsinin kəsişməsində yerləşən doqquzmərtəbəli binanın və ətraf ərazilərin sakinləri ilə görüşüb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Niyazi Bayramov görüşün Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq keçirildiyini deyib. Bildirilib ki, görüşün keçirilməsində məqsəd sakinlərin problemlərini öyrənmək və onların həlli yollarını birgə tapmaqdır.

"Açıq mikrafon" şəraitində keçən görüşdə vətəndaşlar problemlərini söyləyib, müxtəlif təkliflərlə çıxış ediblər.

Səslənən müraciətlər arasında işlə təminat, Qarabağ müharibəsi iştirakçıları və Çernobıl əlillərinə sanatoriyalara göndərişlərin verilməsi, adı çəkilən ərazidə bankomatların quraşdırılması, təbii qazın verilişində yaranan vaxtaşırı fasilələr, torpaq sahələrinin verilməsi üçün sakinlərin növbəyə götürülməsi və digər məsələlər öz əksini tapıb.

Ümumilikdə, 40-dan çox şikayət və təklif dinlənilib. Bir çox məsələlər yerindəcə öz həllini tapıb, digər problemlərin araşdırılaraq aradan qaldırılması üçün aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# İbrahim Əhmədov: Soçidə imzalanan sənədlər SOCAR-ın Rusiya şirkətləri ilə birgə fəaliyyəti üçün yeni qapılar açır

Ölkə başçısının Rusiyaya rəsmi səfəri zamanı sentyabrın 1-də Soçidə Azərbaycan və Rusiya prezidentlərinin iştirakı ilə iki ölkə arasında həm siyasi, həm də iqtisadi əlaqələrin gələcək inkişafı üçün müxtəlif sənədlər imzalandı. Həmin sənədlər arasında yer alan SOCAR ilə "Rosneft" arasında "Qoşadaş" blokunun və Xəzər dənizi təkinin Azərbaycan hissəsində yerləşən Abşeron yarımadasının dayazsulu şimal hissəsinin neft və qaz potensialının birgə öyrənilməsi haqqında Saziş, Dövlət Neft Şirkəti və "Rosneft" arasında Kontrakt, eləcə də SOCAR, "Qazprombank" və "Rusiya İxrac Mərkəzi" arasında Rusiyadan ixracın dəstəklənməsi sahəsində layihələrin birgə reallaşdırılması çərçivəsində strateji əməkdaşlıq haqqında Saziş SOCAR-ın Rusiya enerji şirkətləri və kommersiya təşkilatları ilə birgə fəaliyyəti üçün yeni qapılar açır.

Bu sözləri AZƏRTAC-a SOCAR-ın ictimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov deyib.

SOCAR rəsmisi qeyd edib ki, Dövlət Neft Şirkətinin "Rosneft"lə imzaladığı "Qoşadaş" blokunun və Abşeron yarımadasının dayazsulu şimal hissəsinin neft və qaz potensialının birgə öyrənilməsinə dair Sazişlə tərəflərin karbohidrogenlərin geoloji kəşfiyyatı, işlənməsi, hasilatı və satışı sahəsində əməkdaşlıq imkanlarını öyrənmək niyyəti təsbit olundu.



**"SOCAR-la "Rosneft"in imzaladığı Kontrakt isə Dövlət Neft Şirkətinin Türkiyədəki "Star" neft emalı zavoduna (NEZ) Rusiya neftinin təchizatını nəzərdə tutur. Bildiyiniz kimi, Azərbaycan öz nefti ilə yanaşı, üçüncü tərəflərin neftini də alır və ya satır. Ötən ayın əvvəlindən "Star" neft emalı zavodunda sınaq məqsədilə xam neft emalına başlanılıb və NEZ-ə ilk xam neft yükü məhz Azərbaycandan olmaqla 80 min ton "Azeri Light" markalı xam neft çatdırılıb. Lakin hamıya məlumdur ki, "Azeri Light" markalı neft hazırda ən baha neft növlərindəndir. Rusiya xam nefti isə ağır neft olmaqla nisbətən daha ucuzdur. Buna görə də Rusiya mənşəli neft "Star"da emal üçün məqbuldur və daha ucuz olduğuna görə əlavə mənfəət yaradır. Kontraktın şərtlərinə görə, bu ilin dekabr ayından etibarən bir il ərzində zavodun 1 milyon ton Rusiya xam nefti ilə təchiz olunması planlaşdırılır",** - deyə İ.Əhmədov əlavə edib.

O qeyd edib ki, SOCAR-ın "Qazprombank" və "Rusiya İxrac Mərkəzi" ilə imzaladığı Rusiyadan ixracın dəstəklənməsi sahəsində layihələrin birgə reallaşdırılması çərçivəsində strateji əməkdaşlıq haqqında Sazişin məqsədi Dövlət Neft Şirkətinin həyata keçirdiyi layihələrin ehtiyaclarını qarşılamaq üçün Rusiya istehsalı olan avadanlıqların, habelə iş və xidmətlərin ixracına dəstək göstərilməsi sahəsində uzunmüddətli, səmərəli və əlverişli əməkdaşlığın inkişaf etdirilməsindən ibarətdir. Sazişə görə, "Qazprombank" tərəfindən bank xidmətlərinin göstərilməsi, habelə istehsalat obyektlərinin modernləşdirilməsi və sənaye avadanlığının satın alınması istiqamətində SOCAR-ın həyata keçirdiyi cari və investisiya fəaliyyətinin potensial maliyyələşdirilməsi də nəzərdə tutulur. Bundan əlavə, Rusiya İxrac Mərkəzi sənəd çərçivəsində Rusiya istehsalı olan avadanlığın təchizatını, habelə rusiyalı podratçıların iş və xidmətlərini maliyyələşdirən Rusiyanın kommersiya banklarına sığorta təminatının təqdim edilməsini planlaşdırır, eləcə də bu ölkənin kommersiya bankları tərəfindən verilən kreditlərin faiz dərəcəsinin subsidiya edilməsi məsələsini araşdırmağa hazır olduğunu təsdiqləyir.

**"Qazprombank" və SOCAR uzunmüddətli və strateji əməkdaşlıq qurub. Bu Saziş isə tərəflərin birgə maraqlarına əsaslanır. Bildiyiniz kimi, 2015-ci ildə "Qazprombank" "SOCAR Polymer" layihəsi üçün 10 illik müddətə təxminən 500 milyon ABŞ dolları həcmində kredit ayırıb. İki il öncə isə "Qazprombank" ilə "SOCAR Polymer" arasında əməkdaşlıq haqqında saziş də imzalanıb. Yüksək Sıxlıqlı Polietilen zavodu layihəsinin maliyyələşdirilməsini məhz "Qazprombank" həyata keçirib. Hazırda "Qazprombank" Rusiya İxrac Mərkəzinə dövlət dəstəyi proqramları çərçivəsində SOCAR GPC qaz-kimya kompleksi üçün Rusiya istehsalı olan məhsul təchizatını 700 milyon dollar həcmində maliyyələşdirilməsi imkanlarını araşdırır",** - deyə SOCAR rəsmisi qeyd edib.

# Göyçaylı fermer: Yetişdirdiyimiz xurmaya daxili və xarici bazarlarda böyük tələbat var

*Kənd Təsərrüfatı Nazirliyi ilə AZƏRTAC-ın birgə layihəsi: "Kəndbəkənd"*





İyirmi hektar xurma bağım var. Ağaclara aqrotexniki qaydada qulluq edirik. Yetişdirdiyimiz sorta xalq arasında "şişburun xurma" deyilir. Dequstasiya indeksi yüksək olduğuna görə insanlar arasında çox sevilir.

Bunu AZƏRTAC-a müsahibəsində Göyçay rayonunun Qızılağac kənd sakini, fermer Gündüz Mahmudov deyib.

Təsərrüfatçı artıq məhsulun yetişmə ərəfəsində olduğunu bildirib: **"Noyabrda xurma tam yetişmiş olacaq. Hazırda xurma bağında 20-dək ailənin üzvləri çalışır. Yetişdirdiyimiz xurmaya daxili və xarici bazarlarda böyük tələbat var. Ona görə də məhsulumuzu həm daxili bazarda satmaq, həm də ixrac etmək istəyirik".**

Göyçaylı fermer xurmanın insan üçün faydalarından da danışıb: **"Bu meyvənin tərkibində olan fosfor insan beyninin ehtiyaclarını təmin edir. Sinir sisteminə sakitləşdirici təsir göstərmək xüsusiyyəti var. Böyrək daşını əridir, görmə qabiliyyətini gücləndirir. Şişburun xurmanın tərkibində yod çoxdur, bu səbəbdən qalxanvari vəz xəstəliklərindən əziyyət çəkən insanlar üçün əvəzsiz meyvədir".**

Qeyd edək ki, rayonda xurma bağlarından yığılan məhsulun təxminən 80 faizi Rusiya və digər MDB ölkələrinin bazarlarına göndərilir. Xurma məhsulunun bağlardan toplanması, qablaşdırılması, avtomobillərə yüklənməsi və xarici ölkələrə daşınması prosesinə yüzlərlə rayon sakini cəlb olunur ki, bu da onların mövsümi işlə təmin edilməsi deməkdir.

Göyçaylı fermerlər son illər rayonda xurma bağlarını xeyli genişləndiriblər. Mütəxəssislər rayonda bu sahənin sürətlə inkişafının səbəbini məhsulun yerli və xarici bazarlara çıxarılması üçün lazımi şəraitin yaradılması və meyvənin saxlanılması üçün Göyçayda soyuducu anbar komplekslərinin fəaliyyət göstərməsi, eləcə də hazırda xurma qurutma fabriki və logistik mərkəzin inşa edilməsi ilə əlaqələndirirlər.

# “Qu quşları” fəvvarə kompleksi ziyarətçilər tərəfindən maraqla qarşılanıb

*Bu kompleksin yenidən bərpa edilməsi nəticəsində Bakı Bulvarının siması daha da gözəlləşib*





1960-cı il



1964-cü il



1967-ci il



1969-1970-ci illər

Şərq ilə Qərbin qovuşduğu coğrafi ərazidə yerləşən, müasirliklə tarixiliyin vəhdətini yaradan ölkəmizin paytaxtı Bakı özünəməxsus memarlığı və gözəlliyi ilə fərqlənir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq və abadlıq işləri, o cümlədən paytaxtın simasına xüsusi yaraşıq verən yeni memarlıq nümunələrinin inşası isə Bakını daha da gözəlləşdirir.

Belə ki, şəhərimizin qədimliyi və klassik üslubu harmonik şəkildə müasir memarlıq nailiyyətləri ilə birləşir. Bütün bunlar isə Bakının dünyanın ən gözəl şəhərləri sırasında yerini daha da möhkəmləndirməsinə töhfə verir. Bir sözlə, bu gün, eyni zamanda, həm Avropa, həm də Şərq arxitektura koloritini özündə birləşdirən Bakı gözəlliyinə görə dünyada diqqət çəkən, turistlərin səyahət









üçün seçdiyi şəhərlərdən biridir.

Bu məqamda qeyd edək ki, Bakının əvəzsiz incilərindən biri sayılan Dənizkənarı Milli Park da paytaxtımızın son 100 illik tarixini özündə yaşadan, onun müasir simasını təşkil edən kompleksdir. Bura həm də Bakı sakinlərinin, eləcə də paytaxtımızın qonaqlarının sevimli istirahət yeridir. Son illər parkın ərazisinin genişləndirilməsi ilə yanaşı, burada yerləşən və onun simvoluna çevrilən obyektlərin yenidən qurulması da diqqət mərkəzində saxlanılır.

Bu istiqamətdə işlərin həyata keçirilməsində Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Məlum olduğu kimi, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva həm də Azərbaycan mədəniyyətinin dünyada təbliği və inkişafı istiqamətində həyata keçirilən nəhəng layihələrin müəllifidir.

Yeri gəlmişkən, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə “Qu quşları” fəvvarə kompleksi yenidən bərpa edilib və bu kompleksin tarixi siması özünə qaytarılıb. Avqustun 28-də Bakı Bulvarının tarixi rəmzlərindən biri olan və yenidən bərpa edilən “Qu quşları” fəvvarə kompleksinin açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva kompleksin açılışında iştirak ediblər.

## “QU QUŞLARI” FƏVVARƏSİ 1960-CI İLLƏRDƏ PAYTAXTIN “ƏFSANƏVİ” MƏKANINA ÇEVRİLMİŞDİ

Məlumat üçün bildirək ki, Bakı Bulvarındakı “Qu quşları” fəvvarəsi 1960-cı illərdə qurulub. 1960-1980-ci illərdə Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda genişmiqyaslı quruculuq işləri həyata keçirilir, o cümlədən Bakıda memarlıq kompleksləri və paytaxtın simasını dəyişən binalar inşa edilirdi. Həmin vaxt Bakı dənizkənarı parkı da hamının diqqətini cəlb edən gözəl məkana çevrildi. Azneft dairəsi ərazisində qurulan “Qu quşları” fəvvarəsi də sakinlərin və şəhərimizin qonaqlarının sevimli məkanlarından biri kimi tanındı. Dahi şair Nizami Gəncəvi və görkəmli bəstəkar Qara Qarayevin “Yeddi gözəl” poeması və baletindən ruhlanaraq yaradılan və 7 qu quşu heykəlindən ibarət fəvvarə sakinlərin çox xoşuna gəldi və necə deyərlər, paytaxtın “əfsanəvi” məkanına çevrildi. Kompleksin ayrı-ayrı tarixi dövrlərdəki vəziyyəti fotokolleksiyaçıların albomlarında yer aldı, eləcə də xüsusi açıqcalar hazırlandı.

## 1980-Cİ İLLƏRDƏ KOMPOZİSİYAYA YENİ ÇALARLAR ƏLAVƏ EDİLDİ

Bildirmək yerinə düşər ki, “Qu quşları” fəvvarəsinin kompozisiyası bir neçə dəfə işlənilib. 1960-cı illərin əvvəlində 7 qu quşundan və hovuzdan ibarət olan kompozisiyaya 1980-ci illərdə yeni çalarlar əlavə edildi. 1990-cı illərin əvvəlində ölkədə hökm sürən xaos və baxımsızlıq səbəbindən bir çox digər ictimai obyektlər kimi, bu ansambl da bərbad vəziyyətə düşüb. 2007-ci ildə Dənizkənarı Bulvar yenidən qurularkən onun yerində mərmər fəvvarə kompleksi yaradılıb. Lakin tarixi qu quşları ilə məşhurlaşan fəvvarə üçün hər zaman bir nostalji var idi.

## “QU QUŞLARI” FƏVVARƏ KOMPLEKSİNİN YENİDƏN BƏRPA EDİLMƏSİ MÜASİR MEMARLIQDA TARİXİ İZLƏRİN QORUNUB SAXLANILMASI BAXIMINDAN DA ƏHƏMİYYƏTLİDİR

Qeyd etdiyimiz kimi, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bu tarixi ansambl yenidən bərpa edilib və tarixi siması özünə qaytarılıb. Bu kompleksin yenidən öz tarixi simasını bərpa etməsi nəticəsində Bakı Bulvarının siması daha da gözəlləşib. Digər tərəfdən, “Qu quşları” fəvvarə kompleksinin yenidən bərpa edilməsi müasir memarlıqda tarixi izlərin qorunub saxlanılması baxımından da əhəmiyyətlidir.

Məlumat üçün bildirək ki, Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində ərazidə hovuz inşa edilib, 16 fəvvarə dirəyi qurulub, təbii daşlar üzərində heykəltəraş Murad Sücəddinov tərəfindən 7 qu quşu heykəli hazırlanıb. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırığına əsasən, tarixi ənənələrin qorunması ideyasına söykənən layihə üzərində işlər yüksək səviyyədə həyata keçirilib. Vacib məqamlardan biri də odur ki, qu quşları 1960-cı illərdə olduğu kimi, hər biri fərqli ölçüdə və fərqli hərəkəti təsvir edərkən hazırlanıb. Fəvvarələr qurularkən işıqlandırmaya xüsusi diqqət yetirilib. İndi bu məkan həm yerli sakinlər, həm də turistlər üçün yeni istirahət yeri olmaqla yanaşı, keçmişdə çox sevilən bulvarın bu hissəsində yaşanan xatirələri də canlandıracaq.

Biz də gündən-günə gözəlləşən Bakının simasına daha bir xoş ovqat gətirən bu tarixi ansamblı izləmək üçün birbaşa həmin məkana yollandıq. Gəzinti əsnasında bu kompleksin ətrafındakı insanların bir neçəsi ilə görüşüb həmsöhbət olduq. Onların fikrincə, Bakının qədimliyi saxlanılmaqla sanki şəhər yenidən qurulur. Məsələn, paytaxt sakini Nəcibə Nəcəfova qədimliyin fonunda müasirlik yaratmaqla ölkənin son illər böyük inkişaf yolu keçdiyini, paytaxt Bakının daha da gözəlləşdiyini bildirib: **“Yenidən qurulan əfsanəvi kompleks məndə nostalji hisslər yaratdı. Bir anlıq gəncliyimə, tələbəlik illərimə qayıtdım. Fəvvarənin açılışını televiziyada gördükdən sonra həyat yoldaşımla seyr etmək istədik. Zərif və bənzərsiz bir iş ərsəyə gəlib. Bakının tarixi rəmzlərindən biri olan “Qu quşları” fəvvarələr kompleksinin yenidən ilkin görkəminə qaytarılması paytaxtımızın hüsnünə xüsusi yaraşıq verir. Göstərilən təşəbbüsə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlığımı bildirirəm”.**

Təkcə paytaxt əhalisinin deyil, ölkəmizə gələn çoxsaylı turistlərin xoşladığı və baş çəkdiyi bu məkan gözəlləşən Bakının görkəminə daha bir xoş ovqat gətirdi. Moskvadan şəhərimizə ailəsi ilə qonaq gələn Vadim Bayramov da öz məmnunluğunu ifadə edib: **“Rusiya vətəndaşıyam, amma əslən Xudat şəhərindənəm. Hər il ailəmlə birgə Azərbaycana səfər edirik. Sevindirici haldır ki, hər il ölkəmizin necə inkişaf etdiyinin şahidi oluruq. Tarixi kompleksin yenidən insanların ixtiyarına verilməsi təqdirəlayiq haldır. Burada çoxlu şəkillər çəkdirmişik. İstəyirik ki, bu gözəlliklərdən dost-tanışlarımız da agah olsun”.**

Daha sonra “Qu quşları” fəvvarə kompleksi fonunda şəkil çəkdirən cütlüyə yaxınlaşdıq. Aysel Cabbarlının sözlərinə görə, elçilik mərasimindən sonra ilk gəldikləri məkan məhz “Qu quşları” fəvvarə kompleksi olub: **“Bu gün bizim həyatımızda əlamətdar gündür. Elçilik mərasimindən sonra buraya gəlməyi qərarlaşdırdıq. Valideynlərimin vaxtilə bu kompleks ətrafında şəkilləri olub. Biz də istədik ki, bu gözəlliyi həm yaxından seyr edək, həm də bu anı fotokameraların yaddaşına həkk edək”.**

Qeyd edək ki, axşam saatlarında əraziyə xüsusi yaraşıq verməsi üçün hovuz kompleksi müasir işıqlandırma sistemi ilə təchiz edilib. Bir sözlə, rəngarənglik və layihənin mükəmməlliyi parkın cəlbediciliyini daha da artırıb.

**Müşfiqə BAYRAMLI**

# Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları uğurlu nəticələr əldə ediblər





Azərbaycan Ordusunda keçirilən “Ən yaxşı haubitsalı özüyeriyən artilleriya divizionu” adı uğrunda yarışda Əlahiddə Ümumqoşun Ordunun artilleriyaçıları da iştirak ediblər.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, plana uyğun olaraq keçirilən yarışda döyüş və döyüşə hazırlıq mərhələləri üzrə qarşıya qoyulmuş tapşırıqlar yerinə yetirilərək məqsədlərə nail olunub.

# Siyasi diletantın reallıqdan uzaq sayıqlamaları...

*Yaxud İlqar Məmmədov anti-Azərbaycan dairələrin direktivləri əsasında fəaliyyət göstərir*

Sirr deyil ki, ölkəmizin dinamik inkişafı, milli maraqlara əsaslanan müstəqil siyasət həyata keçirməsi və milli mənafelərlə bağlı prinsipial mövqedən çıxış etməsi anti-Azərbaycan dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Həmin dairələr “beşinci kolon” nümayəndələrinin xidmətlərindən istifadə etməklə ölkəmizə qarşı təzyiq mexanizmi formalaşdırmağa, dövlətimizin müsbət beynəlxalq imicinə kölgə salmağa çalışırlar. “Sapı özümüzdən olan balta”lar, yəni “beşinci kolon” nümayəndələri - ermənipərəst və antimilli şəxslər isə anti-Azərbaycan dairələrin sifarişlərini canla-başla yerinə yetirir, ölkəmizin milli maraqlarına zidd mövqe sərgiləyirlər. Həmin ünsürlərin xarici maraq qruplarından aldıqları qrantların “haqq”ını vermək və maliyyə axınının davamlılığını təmin etmək üçün istinad etdiyi vasitələrdən biri məhz anti-azərbaycançı çağırışlar səsləndirmək, ümummilli məsələlərdə dövlətimizin və xalqımızın mənafeyinə zidd mövqe tutmaqdır. Belə şəxslərdən biri də REAL-ın sədri İlqar Məmmədovdur. İlqar Məmmədovun dünən keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikirlər bu şəxsin olduqca ziddiyyətli təfəkkürə malik olduğunu göstərməklə yanaşı, onun konkret olaraq anti-Azərbaycan dairələrin direktivləri əsasında fəaliyyət göstərdiyini bir daha nümayiş etdirir.

## AZƏRBAYCAN İQTİSADİYYATININ DİNAMİK İNKİŞAFI VƏ ƏLDƏ EDİLƏN MÖHTƏŞƏM NAİLİYYƏTLƏR REAL SƏDRİNİ NƏ ÜÇÜN NARAHAT EDİR?

İlqar Məmmədov sözügedən mətbuat konfransında Azərbaycan iqtisadiyyatının inkişafı və perspektivləri ilə bağlı reallıqlara uyğun olmayan və qərəzli fikirlər səsləndirib. Bu şəxsin diqqətinə mövcud reallıqları dolğun surətdə çatdıraraq qeyd edək ki, Azərbaycan son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində böyük inkişaf yolu keçib. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, Azərbaycanın milli gücünün artmasını təmin edib. Həyata keçirilən uğurlu siyasətin nəticəsi kimi, ötən illər ərzində ölkəmizin valyuta ehtiyatları artıb, müxtəlif sahələri əhatə edən layihələr uğurla reallaşdırılıb, islahatlar müvəffəqiyyətlə davam etdirilib. İqtisadiyyatın şaxələndirilməsinə nail olmaq üçün reallaşdırılan islahat xarakterli tədbirlər, eyni zamanda, yeni inkişaf perspektivlərinin meydana çıxmasını şərtləndirib. Həyata keçirilən iqtisadi islahatlara paralel olaraq makroiqtisadi sabitlik qorunub saxlanılıb, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun və regionların inkişafı sürətlənib, sahibkarlığa dövlət dəstəyi gücləndirilib, özəl bölmənin inkişafı üçün azad rəqabət və münbit investisiya mühiti yaradılıb, əhalinin sosial rifahı daha da yaxşılaşıb. Təsadüfi deyil ki, Azərbaycan iqtisadiyyatının inkişafı ilə bağlı birmənalı şəkildə müsbət proqnozlar səsləndirilir, ölkəmizin iqtisadi nailiyyətləri beynəlxalq miqyasda da təqdir olunur - yüksək qiymətləndirilir. Nüfuzlu beynəlxalq reytinq agentliklərinin hesabatlarında yer alan məqamlar ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin müsbət nəticələrini əks etdirir. Amma görünür Azərbaycan iqtisadiyyatının dinamik inkişafı və bütün sahələrdə əldə edilən möhtəşəm nailiyyətlər siyasi diletant İlqar Məmmədovu ciddi şəkildə narahat edir. Çünki bu şəxs, qeyd etdiyimiz kimi, anti-Azərbaycan dairələrə xidmət edir, həmin qüvvələrin siyasi sifarişlərini icra edir və bu məqsədlə müxtəlif manipulyasiyalarla cəmiyyətdə çaşqınlıq yaratmağa çalışır.



## AZƏRBAYCAN BÜTÜN AZADLIQLARIN TƏMİN EDİLDİYİ DEMOKRATİK VƏ HÜQUQİ DÖVLƏTDİR

Sözügedən mətbuat konfransında iqtisadiyyat sahəsində savadsızlığını büruzə verən REAL sədri Azərbaycanda hüquq sistemi ilə bağlı da qərəzli və qeyri-obyektiv fikirlər səsləndirərək bu məsələni manipulyasiya predmetinə çevirməyə çalışıb. Şübhəsiz, İlqar Məmmədovun özünə də yaxşı məlumdur ki, Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə hüququn üstünlüyü və qanunların aliliyi prinsipi əməli şəkildə təsbit olunub, eləcə də hər bir şəxs qanun qarşısında bərabərdir və heç kəs əlahiddə hüquqlara malik deyil. Ölkəmizdə insan və vətəndaş hüquqları hansısa qüvvələrin maraqları əsasında yox, milli dövlətimizin Konstitusiya tələblərinə görə qorunur. Azərbaycanda uğurla davam etdirilən demokratik inkişaf siyasəti, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasına yönəlmiş sistemli fəaliyyət müasir dövrün çağırışlarına, eləcə də milli maraqlarımıza cavab verir. Ölkəmizin bu istiqamətdə əldə etdiyi nailiyyətlər beynəlxalq miqyasda da təqdir olunur. Ardıcıl, məqsədyönlü və davamlı islahatların həyata keçirilməsi təqdirəlayiq hal kimi qiymətləndirilir. Azad, demokratik və şəffaf cəmiyyət quruculuğuna nail olunması, siyasi-hüquqi islahatların uğurla həyata keçirilməsi kimi mühüm faktlar Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəlilədiyini göstərir. Bir sözlə, müasir müstəqil Azərbaycan hüquqi və demokratik dövlətdir, ölkəmizdə bütün qərarlar milli qanunvericiliyin tələblərinə uyğun olaraq - Konstitusiya normaları əsasında qəbul edilir. Əlbəttə, İlqar Məmmədovun isə bu müsbət reallıqları gözardı edərək müxtəlif böhtan xarakterli və qərəzli fikirlər səsləndirməsi yenə də onun siyasi sifariş əsasında fəaliyyət göstərməsinin növbəti ifadəsidir.

İlqar Məmmədov mətbuat konfransında həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ilə bağlı ziddiyyətli fikirlər səsləndirib. Azərbaycanın milli maraqlarına zidd mövqedə duran bu şəxsə bir daha xatırladırıq ki, Cənubi Qafqazın lider dövləti kimi çıxış edən, yüksək beynəlxalq nüfuza malik olan Azərbaycanın xarici siyasət kursunun başlıca strateji prioritetlərindən birini Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi təşkil edir. Başqa sözlə, beynəlxalq hüquqa və ədalətə söykənərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipi əsasında həllinə nail olmaq Azərbaycan üçün başlıca prinsipial və prioritet məsələlərdən biridir. Təsadüfi deyil ki, Azərbaycan dövləti bütün diplomatik imkanlardan və beynəlxalq tribunalardan istifadə edərək Dağlıq Qarabağ münaqişəsinin həllinin zəruriliyini daim diqqətə çatdırır. Azərbaycanın bu istiqamətdə prinsipial mövqeyi ayrı-ayrı milli dövlətlər və beynəlxalq ictimaiyyət tərəfindən probleme adekvat yanaşmanın ortaya qoyulmasını şərtləndirib. Yəni Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi üstünlük təşkil edir.

## İLQAR MƏMMƏDOV, SƏN KİMSƏN?!

Beləliklə, yuxarıda sadalanan və bunun kimi çoxsaylı faktlar bir daha Azərbaycan dövlətinin demokratik inkişaf yolunda əmin addımlarla irəlilədiyini və bütün sferalarda kifayət qədər geniş uğurlar qazandığını sübuta yetirir. Belə olduğu halda, İlqar Məmmədovu yalan danışmağa nə vadar edir?

Ümumiyyətlə, REAL sədri İlqar Məmmədovun kimliyi Azərbaycan cəmiyyətinə yaxşı məlumdur. Vaxtilə AMİP-də kağız-kuğuz daşımaqla gününü gün edən İlqar Məmmədov bir müddət sonra Soros fondunun agenti kimi qarşımıza çıxdı. Bu “libas”da da İ.Məmmədov maddi maraqlar və siyasi ambisiyalar naminə Azərbaycanın milli maraqlarına zidd fəaliyyətini davam etdirdi. Onun anti-Azərbaycan dairələrə xidmət etməsini göstərən mühüm faktlardan biri bu şəxs həbsdə olarkən bəzi beynəlxalq təşkilatların hətta ən kiçik çinli nümayəndələrinin də onunla bağlı çağırışlar səsləndirməsidir. Hər halda, törətdiyi cinayət əməlinə görə həbs olunmuş İlqar Məmmədovun müdafiəsinə qalxanlar onun “qara qaşına, qara gözünə” vurulmayıblar. Bu fakt onu göstərir ki, İlqar Məmmədov Azərbaycanda sabitliyin pozulmasının tərəfdarı olan, ölkəmizin inkişafından, beynəlxalq mövqeyinin möhkəmlənməsindən ciddi narahatlıq keçirən anti-Azərbaycan dairələrin xidmətçisidir. Öz şəxsi ambisiyalarına və anti-Azərbaycan dairələrin korporativ maraqlarına görə ölkəmizin əleyhinə çağırışlar səsləndirən bu şəxsin fəaliyyəti xalqımızın və dövlətimizin mənafeyinə zidd xarakter daşıyır. Bu fəaliyyət, şübhə yoxdur ki, Azərbaycanın müstəqil siyasət həyata keçirməsindən, qazandığı ciddi uğurlardan narahat olan dairələrin maraqları ilə uzlaşır.

## ANTİ-AZƏRBAYCAN DAİRƏLƏRƏ XİDMƏT EDƏN REAL SƏDRİ “ANA MÜXALİFƏT” LİDERİ OLMAĞA ÇALIŞIR

Əslində, bu məqamların fonunda xoruzun quyruğu aydın görünür. Belə ki, REAL sədri “ana müxalifət” lideri olmağa çalışır. Təsadüfi deyil ki, bir müddət öncə özünü “ana müxalifət” kimi təqdim edən radikal müxalifət nümayəndəsi - AXCP sədri Əli Kərimli ilə REAL sədri İlqar Məmmədov arasında “facebook” üzərindən rəy sorğularının təşkil edilməsi bu məqsəd və prosesin ilkin konturlarını göstərmiş oldu. Başqa bir fakt isə İlqar Məmmədovun ətrafındakı qrup üzvlərinin sosial şəbəkələrdə AXCP və onun sədrinin ünvanına səsləndirdiyi tənqidi, bəzən isə təhqir dolu fikirlərdir. Belə aydın olur ki, AXCP-nin cəmiyyətdə heç bir etimada malik olmamasından və ciddi siyasi qüvvə kimi qəbul edilməməsindən istifadə etmək istəyən REAL sədri siyasi palitrada “aktivlik” görüntüsü yaratmağa çalışmaqla bu məqsədə nail olmaq istəyir.

Bütövlükdə, anti-Azərbaycan dairələrin direktivləri əsasında fəaliyyət göstərən və Azərbaycanın milli maraqlarına zidd mövqedə duran siyasi diletantın reallıqdan uzaq sayıqlamaları onun müxtəlif manipulyasiyalarla gündəmə gəlmək niyyətində olduğunu göstərir.

**Nurlan QƏLƏNDƏRLİ**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF
www.kivdf.gov.az

# Regionlarda məktəb binalarının tikintisi və təmiri davam etdirilir

## *Hazırda ölkəmizin müxtəlif bölgələrində 34 yeni məktəb binası tikilir, 22 məktəb binasında isə əsaslı təmir-bərpa işləri aparılır*






Məlum olduğu kimi, Azərbaycanda təhsilin inkişafı ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Ölkəmizdə insan kapitalının inkişafını təmin etmək məqsədilə bu sahəyə xüsusi diqqət yetirilir.

Daha dəqiq desək bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən Dövlət proqramları və islahatlar çərçivəsində təhsilin bütün sahələri inkişaf edir. Bu proqramlar orta məktəblərdə kurikulum, təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsili, Azərbaycanın ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyasını və s. sahələri əhatə edir.

Ölkəmizdə məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb və hazırda da görülməkdədir. Yəni təhsil infrastrukturunun müasir standartlara uyğun şəkildə yenidən qurulması da həyata keçirilən dövlət siyasətinin başlıca istiqamətlərindən biridir. Bu proses təkcə paytaxt ilə məhdudlaşmır, ən ucqar bölgələri də əhatə edir.

Yeri gəlmişkən, dövlətin təhsillə bağlı strategiyasının həyata keçirilməsində Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi ilə diqqət çəkir. Fondun təhsil sahəsində gördüyü işlər sırasında müxtəlif bölgələrdə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı müstəsna əhəmiyyət daşıyır. Ümumiyyətlə, 2003-cü ildən indiyə qədər ölkədə 3000-dən çox məktəb tikilib, Azərbaycanda heç vaxt olmayan qədər geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Bununla da ölkədə təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə qaldırılıb.

Eyni zamanda, yeni dərs ilinə hazırlıq çərçivəsində məktəb binalarının tikintisi və təmiri davam etdirilir. Təhsil Nazirliyindən bildiriblər ki, hazırda ölkəmizin müxtəlif bölgələrində 34 yeni məktəb binası tikilir, 22 məktəb binasında isə əsaslı təmir-bərpa işləri aparılır. Bu il respublika ərazisində 137 modul tipli təhsil müəssisəsi istifadəyə veriləcək.

Bölgələrə gəlincə, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na əsasən Zərdab rayonu H.Zərdabi adına 1 saylı məktəb-liseyin binasında da aparılan əsaslı təmir işləri son tamamlama mərhələsindədir. 1176 şagird yerlik məktəb-liseydə smeta dəyəri 3,2 milyon manat olan əsaslı təmir işləri Təhsil Nazirliyinin sifarişi ilə "Xim Ekspres-2000" MMC tərəfindən aparılır. Qeyd edək ki, təhsil ocağında əsaslı təmir işlərinə 2016-cı ildən başlanılıb. Bu il istifadəyə verilməsi nəzərdə tutulan məktəb-liseydə tədrisin yüksək səviyyədə təşkili üçün bütün lazımi şərait olacaq.

Ölkənin şimal bölgəsində isə 21 məktəb üçün yeni modul tipli bina quraşdırılır. Şagird sayı 100-dək olan bu təhsil ocaqlarının yeni tədris ilinin başlanmasına qədər istifadəyə verilməsi nəzərdə tutulub. 2 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin direktor müavini Fərhad Əmrahov KİV-ə açıqlamasında bildirib ki, şimal bölgəsində yeni tədris ilinədək istifadəyə verilməsi nəzərdə tutulan 21 modul tipli məktəb binasının əksəriyyətində quraşdırma işlərinə başlanılıb. Qubada 8, Xaçmaz və Qusar rayonlarının hər birində 4, Şabranda 3, Siyəzəndə isə 2 məktəb binası şagirdlərin istifadəsinə veriləcək. Bu binaların üstünlükləri azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, şagirdlərin sayına uyğun olaraq sinif otaqlarının rahatlıqla azaldılıb-artırılmasıdır.

Tikinti-quraşdırma işləri başa çatdıqdan sonra Qubanın Alıc, Nütəh, Cimi, Dərk, Rük, Çarxaçı, Qarxun, Zıxır, Xaçmazın Alıcqışlaq, Qaracəlli, Cığatay, Ərəb, Qusarın Ləcət, Zindan Muruq, Yeni Həyat, Yuxarı Tahircal, Siyəzənin Qalaaltı, Qozağacı, Şabranın isə Xəlfələr, Qazbabalı kəndləri və Şabran şəhər 1 nömrəli məktəbin şagirdləri müasir binada təhsil alacaqlar.

Hazırda Quba rayonunun Alıc kəndində də 40 yerlik modul tipli binanın quraşdırılması işləri aparılır. İbtidai məktəb binası yanğın xəbərdarlıq sistemi, istilik, işıq, su təchizatı, internet, inventar və avadanlıqlarla təmin olunacaq.

Ağdaşın Nizami Gəncəvi adına 624 şagird yerlik şəhər tam orta məktəbi də əsaslı təmir edilir. Rayonun ən iri təhsil ocaqlarından olan məktəb binası üçmərtəbəlidir. Əsaslı təmir işləri Təhsil Nazirliyinin sifarişi ilə "T.T.S inşaat" MMC tərəfindən aparılır. Tədris ocağında əsaslı təmir işlərinin bu il başa çatdırılması nəzərdə tutulub.

Bu yaxınlarda isə Şamaxı rayonu şəhid Aslan Şirinov adına Meysəri kənd tam orta məktəbinin yeni binası istifadəyə verilib. Belə ki, Şamaxı rayonuna səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilmiş 132 şagird yerlik şəhid Aslan Şirinov adına Meysəri kənd tam orta məktəbinin yeni binasının açılışında iştirak ediblər. Dövlətimizin başçısı və xanımı məktəbin yeni binasının rəmzi açılışını bildirən lenti kəsiblər.

Təhsil naziri Ceyhun Bayramov və Şamaxı rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat veriblər ki, Meysəri kənd tam orta məktəbinin binası ötən əsrin 50-ci illərində inşa edilib. O dövrdən sonra heç vaxt təmir olunmayan məktəb artıq müasir tələblərə cavab vermirdi və tədris üçün yararsız vəziyyətə düşmüşdü. Prezident İlham Əliyevin ölkədə təhsilin inkişafına göstərdiyi diqqət, bu sahədə həyata keçirdiyi islahatlar Meysəri kənd tam orta məktəbinin həyatında da mühüm rol oynayıb. 2016-cı ildə Meysəri kənd tam orta məktəbi üçün yeni binanın inşasına başlanıb. Məktəb binası artıq istifadəyə hazırdır və burada inşaat işləri yüksək səviyyədə yerinə yetirilib. Müasir və işıqlı sinif otaqlarının olduğu məktəbdə təlim və tədrisin yüksək səviyyədə aparılması üçün bütün şərait yaradılıb. Məktəbin kitabxanası dərsliklər və dərs vəsaitləri ilə təmin olunaraq şagirdlərin istifadəsinə verilib. İdman zalında da müasir qurğular quraşdırılıb. Akt zalında isə məktəbin həyatı ilə bağlı müxtəlif tədbirlərin keçirilməsinə hər cür imkan var. Məktəbdə əyani vasitələrlə təchiz olunan fənn kabinetləri yaradılıb. Xarici dil otaqlarının, kimya, fizika və biologiya üzrə fənn kabinetlərinin olduğu məktəbdə informatika kabineti kompüter avadanlığı ilə təchiz edilib. Məktəbin hərbi kabinetində şagirdlərin hərbi biliklərə yiyələnmələri üçün hər cür şərait yaradılıb.

Meysəri kənd tam orta məktəbi üçün yeni binanın inşası son illərdə təhsil sahəsində qazanılan uğurların təməlində Azərbaycanın yeni təhsil modelinin dayandığını bir daha təsdiqləyir. Artıq ölkədə yeni təhsil konsepsiyası formalaşıb və həyata keçirilməyə başlayıb. Yuxarıda da vurğuladığımız kimi Azərbaycanda yüzlərlə məktəb binasının tikilməsi, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi nəhəng təhsil infrastrukturunun formalaşmasına geniş imkanlar açıb. Ən əsası isə, milli dəyərlər üzərində qurulan təhsil modeli gənclərin nümunəvi vətəndaş kimi formalaşmasını qarşıya əsas məqsəd qoyub və buna nail olub.

Avqustun 26-da isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni inşa olunan tam orta məktəb binasının açılışında iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım məktəbin rəmzi açılışını bildirən lenti kəsiblər. Qeyd edək ki, Lahıc qəsəbəsi ölkəmizin ən qədim yaşayış məskənlərindən biridir. Tarixi erkən orta əsrlərə gedib çıxan bu qəsəbə nadir arxitekturası ilə diqqəti cəlb edir. Bu gün Lahıc Tarix-Mədəniyyət Qoruğunda 90-dan çox tarixi abidə, o cümlədən 5 məscid, 3 hamam, 60-dan artıq yaşayış evi, həmçinin körpü və su dəyirmanı, qəbirüstü daşlar, bir neçə sənətkarlıq emalatxanası və ictimai bulaqlar qorunur. Lahıcda 100-dən çox sənət növü və peşələr yaşadılır və inkişaf etdirilir. Bütün bunlar da turistlərin diqqətini çəkir. Bu ilin 8 ayında qəsəbəyə 45 min turist gəlib. Son illərdə qəsəbənin inkişafı ilə bağlı bir sıra tədbirlər görülüb, sosial layihələr icra olunub. Bu layihələrdən biri də 400 şagird yerlik Lahıc qəsəbə tam orta məktəb binasının inşasıdır. Təhsil naziri Ceyhun Bayramov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verib ki, Lahıc qəsəbə tam orta məktəbi üçün bina 1928-ci ildə inşa edilmişdi. Məktəb 130 şagird üçün nəzərdə tutulmasına baxmayaraq, burada 232 şagird təhsil alırdı. Binanın mövcud vəziyyəti müasir dövrün tələblərinə uyğun deyildi, eyni zamanda, qəsəbə əhalisinin sayının artması və ətraf kənlərdə tam orta məktəbin olmaması bu təhsil müəssisəsində şagird sıxlığı yaratmışdı. Dövlətimizin başçısının ötən il imzaladığı Sərəncama əsasən Lahıcda 400 şagird yerlik yeni ümumtəhsil məktəbinin tikintisi məqsədilə Prezidentin ehtiyat fondundan Təhsil Nazirliyinə vəsait ayrıldı. Üçmərtəbəli binada tikinti işləri yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilib. Müxtəlif fənn kabinetləri və laboratoriyalarının yaradıldığı məktəbdə bütün sinif otaqları əyani vəsaitlərlə təchiz olunub. Burada idman zalı və 175 yerlik akt zalı da yaradılıb. Videomüşahidə sisteminin quraşdırıldığı məktəb mərkəzləşdirilmiş istilik sistemi ilə təchiz edilib.

Sonda qeyd edək ki, yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından çox mühüm addımlardandır. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı bir daha təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərindən biridir.

**Nardar BAYRAMLI**

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Nəsimi – şeir, incəsənət və mənəviyyat Festivalı keçiriləcək




Sentyabrın 27-30-da Azərbaycanda ilk dəfə olaraq Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalı keçiriləcək.

AZƏRTAC xəbər verir ki, Şərqin dahi şair və mütəfəkkirlərindən biri İmadəddin Nəsiminin (1369-1417) yaradıcılığına həsr olunan, şeir və incəsənətin yaşadılması məqsədi daşıyan Festival Heydər Əliyev Fondunun təşkilatçılığı və Mədəniyyət Nazirliyinin dəstəyi ilə reallaşır.

Altı əsr əvvəl yaşamış böyük şair İmadəddin Nəsiminin şeirləri yalnız möhtəşəm söz ustalığı nümunələri deyil, onlar məna qüvvəsi və kəsərli səmimiliyi ilə hər kəsi vücudun sirri qarşısında fikrə dalmağa, qəlbin ən dərin qatlarına seyr etməyə çağırır.

Festival şairin fəlsəfi baxışlarını əks etdirən "Simadan - asimana" və onun öz kəlamından götürülən "Zərrə mənəm, günəş mənəm..." şüarları ilə keçiriləcək. Genişmiqyaslı tədbirin proqramı müxtəlif sənət növləri və bilik sahələrini əhatə edir. Festival günlərində Bakı şəhərinin müxtəlif məkanlarında, eləcə də Nəsiminin doğma diyarı Şamaxıda proqramlar təşkil olunacaq.

Festivalın ilk günü iştirakçılar şairin doğulduğu Şamaxı şəhərində İmadəddin Nəsiminin qardaşı Şaxəndanın və görkəmli şair Seyid Əzim Şirvaninin dəfn olunduğu Şaxəndan qəbiristanlığını, Qafqazda ən qədim məscidlərdən olan, 743-cü ildə inşa edilmiş Cümə Məscidini, Avaxıl kəndindəki Pir Ömər məbədini və Şamaxı Tarix-Diyarşünaslıq Muzeyini ziyarət edəcəklər.

Şamaxıda Nəsiminin heykəli önündə şeir-musiqi məclisi, həmçinin Mədəniyyət Nazirliyinin "Söz" ədəbi layihəsi çərçivəsində keçirdiyi, İmadəddin Nəsiminin xatirəsinə həsr olunmuş ədəbi müsabiqənin qaliblərinin iştirakı ilə tədbir təşkil olunacaq. Müsabiqəyə gənc şairlər Nəsimi dühasından bəhrələnərək yazdıqları əsərləri təqdim ediblər. Festival çərçivəsində, həmçinin muğam və mənəviyyata səsləyən musiqilər ifa olunacaq.

Şamaxının Meysəri kəndində "Həssas Dəb" adı altında Beynəlxalq Etik Dizayn Məntəqəsinin açılışı da keçiriləcək. "Baku" jurnalının son bir neçə ildə "Eko. Dəb marşrutu" ("GKO. Modnıy marşrut") başlığı altında davamlı dərc etdiyi materiallar əsasında qurulan məkan geyim və interyer əşyaları istehsalında ekoloji həssaslıq, təkrar emal, unudulmuş və dövriyyədən çıxan ənənəvi istehsal üsulları və texnologiyalarının bərpasına dair məlumat və maarifləndirmə, nümayiş və satış salonu funksiyalarını özündə ehtiva edəcək. Burada azərbaycanlı və xarici dizaynerlərin işləri təqdim olunacaq. Sərgidə Azərbaycanda yüz illər boyu istifadə olunan geyim üslubları, müxtəlif dövrlərdə dəbdə olmuş fərqli rənglər və milli ornamentli bəzəklərlə işlənmiş libaslar nümayiş etdiriləcək.

Daha sonra AMEA-nın Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasında "Ulduzlar önündə" adlı akustik və elektron musiqi axşamı keçiriləcək. Proqramda Sahib Paşazadə, İrşad Hüseyn (Azərbaycan), Ali Phi (İran), Sati Kazanova (Rusiya), Rabih Beaini (Livan/Almaniya), Abdel Karim ( Livan), "Hanoy" dueti: Nguen Le (Vyetnam/Fransa) və Ngo Hong Quang (Vyetnam), Görkem Şen (Türkiyə), "Ar Bərd" dueti (Fransa) iştirak edəcəklər.

Sentyabrın 28-də isə Bakıda, Heydər Əliyev Mərkəzində almaniyalı alim, tanınmış nəsimişünas Mixael Hessin (Michael Hess) "Nəsiminin müasir kontekstlərdə dərk edilməsi" mövzusunda mühazirəsi keçiriləcək.

Həmin gün Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunmuş "Canlı həyat" ("Live Life") sərgisi London, Paris, Berlin, Moskva və Tbilisidə nümayişdən sonra Bakıda Heydər Əliyev Mərkəzində təqdim olunacaq. Sərgi ətraf mühit problemlərinə, təbiətin qorunmasına diqqət çəkmək və incəsənətin bu sahədə rolu barədə ictimaiyyəti maarifləndirmək məqsədi daşıyır.

Heydər Əliyev Mərkəzində Birləşmiş Ərəb Əmirliklərinin Barcil İncəsənət Fondunun (Barjeel Foundation) təqdim etdiyi "Hürufiyyə" sərgisi isə 26 rəngkarlıq və qrafika əsərlərindən ibarət olacaq. Bu əsərlər bir sıra ərəb ölkələrində yaşayan, müasirlərimiz olan rəssamlara aiddir və "hürufiyyə" (hərflər, xəttatlıq üzərində qurulan təsvirlər) adlı, son 20 ildə geniş vüsət almış cərəyanı nümayiş etdirir. Ekspozisiyada, həmçinin Azərbaycanın Əməkdar rəssamı Tərlan Qorçunun bir neçə rəsm tablosu təqdim olunacaq.

Daha sonra proqram "ambient musiqi" janrının yaradıcısı, görkəmli britaniyalı bəstəkar Brayan İnonun (Brian Eno) "77 milyon rəsm" musiqi və video-art instalyasiyası ilə davam edəcək. Bu əsər indiyədək Tokio, London, Nyu-York, Buenos-Ayres, Barselona, Sidney, Mexiko, Keyptaun, Roma və digər şəhərlərdə nümayiş olunub.

Tədbirin rəsmi açılış mərasimi də Heydər Əliyev Mərkəzində keçiriləcək. Belə ki, sentyabrın 28-də axşam Mərkəzdəki konsert proqramında Nəsiminin şeirləri təqdim olunacaq, muğamlardan parçalar, XIII-XIV əsr görkəmli Azərbaycan musiqiçisi Əbdülqadir Marağayinin bəstələri üzərinə gənc və orta nəsil bəstəkarların Azərbaycan Milli Konservatoriyasının nəzdindəki "Əsrlərin sədası" qədim musiqi alətləri ansamblı üçün yeni işləmələri, dahi bəstəkar Fikrət Əmirovun "Nəsimi haqqında Dastan" əsəri, Azərbaycanın Əməkdar artisti Tünzalə Ağayevanın Nəsiminin sözlərinə bəstələdiyi "Dua" mahnısı səslənəcək. Konsertdə Azərbaycan əsilli, tanınmış britaniyalı müğənni Sami Yusif də çıxış edəcək.

Festivalın həmin günü Kamera və Orqan musiqisi zalında Azərbaycanın əməkdar artistləri Rain Sultanov və İsfar Sarabskinin mənəviyyat və əbədi dəyərləri vəsf edən "Silsilə" ("Cycle") musiqi layihəsinin təqdimatı ilə başa çatacaq. Bu layihədə İsfar Sarabski fortepiano ilə yanaşı, orqanda caz musiqisi ifa edəcək.

Sentyabrın 29-da Heydər Əliyev Mərkəzində tanınmış yoqa ustası Nandan Qautam (Nandan Gautam) ilə "Bədii yoqa sessiyası" keçiriləcək. N.Qautamın keçirdiyi məşğələni özünün müəllifi olduğu musiqi müşayiət edəcək.

Sentyabrın 29-da, həmçinin Şirvanşahlar sarayında görkəmli alman bəstəkarı Karlhayns Ştokhauzenin (Karlheinz Stockhausen) "Yeddi gündən" ("Aus deb sieben Tagen") əsərini beynəlxalq musiqiçilərdən ibarət heyət kollektiv improvizasiya şəklində ifa edəcək. Bəstəkar əsərdə bir not belə yazmadan, öz vəzifəsini ifaçıları mənəvi cəhətdən ruhlandıran mətnlər tərtib etməkdə görüb. Musiqiçilər həmin mətnləri oxuyaraq sərbəst improvizələr edir və bu prosesdə onlar həm müəllifdən, həm də bir-birinin ifasından ilhamlanmış olurlar. Musiqiçilərin eyni məkanda deyil, saray kompleksinin bir-birindən aralı müxtəlif guşələrində yerləşdirilməsi sanki xəlvətlikdə, tənhalıqda həqiqəti dərketməni təcəssüm etdirir. Müasir kommunikasiya vasitələri ilə bu ayrı-ayrı musiqi ifaları birləşdirilib, internet vasitəsilə canlı yayımlanacaq. Layihədə fərqli mədəniyyət və üslubları təmsil edən musiqiçilər - Azərbaycandan əməkdar artistlər Elçin Şirinov və Şəhriyar İmanov, skripkaçı Osman Eyublu və xarici ölkələrdən Kudsi Erguner (Türkiyə), Sefudi Koyate (Qvineya), Naomi Sato ( Yaponiya), Kristina Vantsu (ABŞ/Belçika), Elizabet Harnik (Avstriya) və Canluka İadema (İtaliya) iştirak edəcəklər.

Sentyabrın 29-da, həmçinin Daş Salnamə Muzeyində dünyaşöhrətli amerikalı iqtisadçı Ceremi Rifkinin (Jeremy Rifkin) "Empatik sivilizasiya və paylaşım iqtisadiyyatı" adlı videomühazirəsi olacaq, ardınca isə sual-cavab sessiyası keçiriləcək.

Daş Salnamə Muzeyində, eyni zamanda, ölməz Nəsimidən ilhamlanaraq hazırlanmış "Bahariyyə" adlı musiqi layihəsi təqdim olunacaq. Səhnədə beş muğam ifaçısı ilə yanaşı, elektron musiqi ifaçısı da çıxış edəcək; Teyyub Aslanov (xanəndə), Əliağa Sədiyev (tar), Elnur Mikayılov (kamança), Şirzad Fətəliyev (zurna və balaban), Kamran Kərimov (nağara), Fərhad Fərzəliyev (elektron musiqi və səs dizaynı).

Həmin gün, həmçinin Dənizkənarı Milli Parkda "DanceAbility" inklüziv metodu ilə rəqs edən qrupun çıxışı olacaq. "DanceAbility Azərbaycan" təşkilatının üçhəftəlik təlimləri nəticəsində ərsəyə gələcək bu çıxış zamanı həm sağlam, həm fiziki imkanları məhdud şəxslər bir araya gələrək rəqs və hərəkətlə özlərini ifadə etmək sevincini paylaşacaqlar. Bu rəqslər Bakı bulvarına Nəsiminin insanda ali və kamil bir məxluq görmək fəlsəfəsinin ruhunu gətirəcək.

Sentyabrın 30-da isə Bakının Qala qəsəbəsində istifadəsiz qalan sənaye anbarında "Açılan divar" ictimai incəsənət layihəsinin təqdimatı olacaq. Layihədə 10-dək yerli və xarici "urban art" (şəhər mühitində incəsənət) rəssamı iştirak edəcək, binanın divarları üzərində öz əsərlərini yaradacaqlar. Bunların arasında ABŞ, Cənubi Afrika, Braziliya, Belçika, İspaniya və Fransa rəssamları olacaq. Uşaq və yeniyetmələr əsərlərin yaradılması prosesini yaxından müşahidə edib, ustad rəssamların rəhbərliyi ilə rəsmlər çəkəcəklər. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbələri daha sonra həmin eskizləri binanın divarlarına böyük ölçüdə əks etdirəcəklər.

Həmin gün "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində "Tullantıdan incəsənətə" sərgisi və "Daşın nəğməsi" layihəsi çərçivəsində yaradılmış əsərlərlə tanışlıq olacaq, Paraqvayın məşhur, uşaq və yeniyetmələrdən ibarət "Recycling" orkestrinin (tullantılardan təkrar emal olunmuş musiqi alətlərindən ibarət orkestr) konsert proqramı təqdim ediləcək.

Festival günlərində İçərişəhərin valehedici cazibəsi ilə incəsənətin qovuşması qonaqları qədim Bakıya səyahət etdirəcək. İçərişəhərdə sərgilər, instalyasiyalar, videoproyeksiyalar nümayiş olunacaq, poeziya nümunələri və musiqi səslənəcək, teatr tamaşaları təqdim ediləcək. Nəsiminin misralarına yazılmış nəzirələr İçərişəhərin dar küçə və dalanlarında qeyri-adi tərzdə - məsələn, divar üzərində xəttatlıq şəklində, yaxud səs yazısında, hətta "QR kod" texnologiyası əsasında hər hansı bir mənzərə üzərində "canlandırılaraq" izləyicinin qarşısına çıxacaq.

Festivalın sonunda Bakı Media Mərkəzində Mədəniyyət Nazirliyinin "Söz" ədəbi layihəsi çərçivəsində İmadəddin Nəsiminin xatirəsinə həsr olunan şeir müsabiqəsinin qalibləri mükafatlandırılacaq.

**İTMİŞDİR**

Ukrayna vətəndaşı Antonina Millerə məxsus olan Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşama üçün verilmiş icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul: Nadir AZƏRİ